# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Konstitusion hüquqlara malik suveren müasir Azərbaycan**




5

## "Lider həmişə öz xalqına münasibətdə ədalətli olmalıdır"



2


SƏS

№ 026 (7194)

13 fevral 2025-ci il.
Qiymәti 60 qәpik


# Ermənistanı bürüyən QƏRB VULQARLIĞI




4

### Orta Dəhliz və Bakı-Tbilisi-Qars dəmir yolunun inkişafı hansı yerdədir?



12

### Səhv karta atılan pulun qaytarılması: QANUN NƏ DEYİR?



16

### İtirdiyimiz xüsusiyyətlər: yaxşılıq



8

### Məktəblərdə maliyyə savadlılığı şagirdlərə tədris olunmalıdır?



7

### Ermənistanın "dollar bulağı" bağlanır...



6

# “Lider həmişə öz xalqına münasibətdə ədalətli olmalıdır”

***Azərbaycan suveren dövlət olaraq müstəqil şəkildə uğurla daxili və xarici siyasət aparır. Ermənistanın 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirərək, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.***

”Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verərkən bildirib.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə vermədi. Əlbəttə ki, erməni işğalçıları tərəfindən ərazimizin 20 faizindən çoxu 30 il işğal altında saxlanılsa da, Azərbaycan bununla heç vaxt barışmamış, beynəlxalq kürsülərdən, möhtəbər yığıncaqlarda öz qəti etirazını bildirmişdi. BMT-nin 4 qətnaməsi olsa da, çox təəssüf ki, bu, həll edilməmişdir. 2020-ci ildə bütün dünya 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı qələbənin şahidi oldu. Düşmən döyüş meydanında darmadağın edildi. Qarşı tərəf kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa edildi.

## ”BİZ REGİONDA BAĞLANTILAR YARADAN GENİŞMİQYASLI LAYİHƏLƏR HƏYATA KEÇİRMİŞİK”



Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Azərbaycan yaranmış yeni reallıqlar fonunda gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib. Təbii ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri ilə milli və dövlət maraqlarına uyğun beynəlxalq əməkdaşlığa önəm verir. Son illərdə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən birinə çevrilib. İstər regional, istərsə də daha geniş coğrafiyada etiabarlı tərəfdaş olaraq yüksək imicə sahib Azərbaycan qarşılıqlı maraqlara əsaslanan xarici siyasət kursunu uğurla davam etdirir. Məhz bunun nəticəsidir ki, ölkəmizin beynəlxalq aləmdə nüfuzu yüksəlib, diplomatik əlaqələr yaradılıb. Ölkəmizin dünya dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. ”Cənab Prezident, Sizcə çoxqütblü dünyada Azərbaycanın yeri haradadır?” sualını cavablandıran Azərbaycan Prezidenti bildirib ki, biz ən başdan, müstəqilliyimiz bərpa ediləndən bəri olduğumuz yerdəyik: ”Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq.”

## ”STRATEJİ TƏRƏFDAŞLIQ ÇOX YÜKSƏKSƏVİYYƏLİ QARŞILIQLI ETİMAD, ƏMƏKDAŞLIQ DEMƏKDİR”

Regionda, dünyada Azərbaycanla bağlı baş verənlər, böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəmin verilməsi ölkəmizlə münasibətlərin qurulmasında maraqlı olduqlarının təzahürüdür. Mövcud münasibətlər Azərbaycanın dünya dövlətləri ilə siyasi, iqtisadi, humanitar sahələrdə, eləcə də beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığına söykənir. Bu gün Azərbaycanın bir çox dünya ölkələri ilə yanşı, Çinlə də əlaqələri uğurlu inkişaf yolundadır. Ötən müddət ərzində dövlətlər arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsasında uğurla inkişaf etdirilib. ”Ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq”, - deyə Prezident bildirib. Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, isə Cənab Prezident ”ölkəmizin statusu müşahidəçi deyil, dialoq üzrə tərəfdaşdır”, - deyə diqqətə çatdırıb: ”Bu, həmin beynəlxalq təşkilatla daha da yaxın olmaq üçün güclü qarşılıqlı iradənin nümayişidir. Əlbəttə ki, beynəlxalq təşkilatlarla işləyəndə və ya onlarla daha yaxın olmaq istəyəndə siz təşkilatın tərkibinə, üzv ölkələrinə nəzər salırsınız. Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var.”

## UĞURLU ÇOXTƏRƏFLİ VƏ İKİTƏRƏFLİ DİPLOMATİYANIN TƏZAHÜRÜ

Azərbaycanın ŞƏT ilə əməkdaşlığı çoxsahəli və hərtərəfli xarakter daşıyır. Ölkəmizin son illər beynəlxalq arenadan artan nüfuzu, həmçinin Avrasiya məkanında əsas tranzit qovşağa çevrilməsi Azərbaycanın ŞƏT üçün əhəmiyyətini daha da artıran faktorlar sırasındadır. Azərbaycanda həm təhlükəsizlik, həm də iqtisadi inkişaf sahəsində daha mühüm rol oynamağa başlayan ŞƏT ilə daha sıx əməkdaşlıqda maraqlıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın regionda mühüm tranzit qovşağına çevrilməsinə şərait yaradıb. Xüsusilə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın beynəlxalq logistik mərkəz kimi rolunu daha da artırır. Bu, Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlıq etdiyi ölkələrlə ticarət və iqtisadi əlaqələrinin inkişafına mühüm töhfə verir. ŞƏT-in Astana Zirvə görüşü terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı, sivilizasiyalararası dialoq və multikulturalizmin təşviqi kimi sahələrdə əməkdaşlığı müzakirə etmək üçün əhəmiyyətli platformadır. Bu məsələlər Azərbaycanın xarici siyasətinin əsas prioritetləri sırasında yer alır və ölkəmizin bu sahələrdəki mövqeyini daha da möhkəmləndirir. ŞƏT ilə əməkdaşlıq Azərbaycanın beynəlxalq səviyyədə səsinin eşidilməsi, mövqeyinin çatdırılması baxımından vacib bir platformadır.

## “BİZİ BİRLƏŞDİRƏN VACİB İNFRASTRUKTUR LAYİHƏLƏRİ VAR”

Xatırladaq ki, Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu məhz Azərbaycanın sərmayələri hesabına başa gəlib. ”Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək”, - deyə Azərbaycan Prezidenti diqqətə çatdırıb. Dövlət başçımız onu da bildirib ki, bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı ”Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk.

Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin ”Bir kəmər, bir yol ” təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir”.

## ”İYİRMİ İLDƏN ARTIQ MÜDDƏT ƏRZİNDƏ MƏN HƏMİŞƏ AZƏRBAYCAN XALQINA HƏQİQƏTİ SÖYLƏMİŞƏM”

Aparıcının hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb, - deyərək ”Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir?” - sualına gəlincə isə dövlət başçımız belə bildirib: ”Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır. Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bu səfər ikitərəfli münasibətlərimizin tarixində ilkdir"

## Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə görüşüb

***Azərbaycanda rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub. Daha sonra Prezident İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.***

Dünən Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

Fevralın 12-də Prezident İlham Əliyev və Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib. Prezident İlham Əliyev öz bəyanatında bildirib ki, bu, tarixi səfərdir və ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində ilkdir: "Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Dəvətimi qəbul edərək ölkəmizə rəsmi səfər etdiyinizdən olduqca məmnunam. Bu, tarixi səfərdir və ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində ilkdir. Əminəm ki, səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq. Bu gün Prezidentlə görüşümüz zamanı biz qarşılıqlı maraq doğuran kifayət qədər böyük sayda məsələləri artıq müzakirə etdik. Bu gün müzakirələrimizi nümayəndə heyəti üzvlərinin iştirakı ilə davam etdirəcəyik. Bu gün imzalanmış sənədlər ikitərəfli əlaqələrimizi çox sahələrdə inkişaf etdirməkdə qarşılıqlı iradəmizi aydın şəkildə nümayiş etdirir. Əminəm ki, hazırda



bəyanatında qeyd edib ki, bugünkü görüş çox məhsuldar keçib və bu, Somali-Azərbaycan münasibətlərində yeni eranın başlanğıcı deməkdir: "Cənab Prezident, çox sağ olun. Münasibətlərimizin tarixində ilk dəfə Azərbaycana səfər etmək, Azərbaycana səfər edən ilk Somali Prezidenti olmaq mənim üçün həqiqətən də böyük şərəfdir. Bu səfər, sadəcə, diplomatik əməkdaşlıq deyil. Bu, həqiqətən iki qardaş ölkələrimiz arasında tərəfdaşlıq üzrə səmərəli və strateji müttəfiqliyin başlanğıcı deməkdir. Somali və Azərbaycanın inkişaf, təhlükəsizlik və tərəqqi ilə bağlı baxışları üst-üstə düşür. Bu gün biz əsasən tərəflər arasında daha sıx əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyimizi bildirdik. Mən, həmçinin Azərbaycan xalqını öz suverenliyini və ərazi bütövlüyünü qoruduğuna görə təqdir etmək istərdim.

Son üç onillikdə bir çox oxşarlıqlarımız mövcuddur. Xüsusilə 1990-cı illərdə Azərbaycan müəyyən çətinliklərlə üzləşəndə, Somali də belə çətinliklərlə üzləşib. Xoşbəxtlikdən, Əlhəmdülillah, Azərbaycan





Bakıda imzalanmış bütün razılaşmalar həyata keçiriləcək və münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaq.

Biz regionlarımızda geosiyasi vəziyyəti, ölkələrimizin üzləşdiyi çağırışları geniş şəkildə müzakirə etdik, ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı dəstəyimizi, eləcə də terrorçuluğa və ekstremizmə qarşı mübarizədə ortaq mövqeyimizi bir daha vurğuladıq. Əlbəttə, hər bir ölkə üçün siyasi sabitlik inkişafı təmin edən ilkin şərtdir. Mən 1990-cı illərdən və bu əsrin əvvəlindən tutmuş beynəlxalq səviyyədə tanınmış ərazilərimizin erməni işğalından azad edilməsinə qədər Azərbaycanın üzləşdiyi ağır dövr barədə cənab Prezidentə məlumat verdim.

Biz, həmçinin Somalidə sərmayə imkanlarını müzakirə etdik. Bildiyiniz kimi, cənab Prezidentin səfərindən əvvəl Azərbaycanın böyük nümayəndə heyəti bir həftə öncə Somaliyə səfər etmiş, əsasən, səfərin hazırlanması və eyni zamanda, gələcəkdə güclü iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması üzərində çalışmışdır. Düşünürəm ki, həmin proses davam etməlidir. Düşünürəm ki, Prezidentin rəsmi səfəri nəticəsində biz digər heyəti konkret hədəf və məqsədlərlə sərmayə sahələrini müəyyən etmək, eləcə də Azərbaycanın sərmayələri qəbul oluna biləcək və faydalı olacaq konkret layihələri qeyd etmək üçün Somaliyə ezam etməliyik. Məsələn, bu sahələr infrastruktur, liman qurğuları və kənd təsərrüfatı ola bilər. Cənab Prezident kənd təsərrüfatında böyük potensialın olduğu barədə mənə məlumat verdi. Mən, həmçinin Azərbaycanda özünü təmin edən kənd təsərrüfatının yaradılması ilə əlaqədar hədəflərimiz barədə məlumat verdim. Bir sözlə, hesab edirəm ki, biz bu sahədə kifayət qədər nəzərəçarpan əməkdaşlıq qura bilərik.

Müdafiə əməkdaşlığımızın mühüm sahələrindən biridir. Bu gün sənəd imzalandı və sabah cənab Prezident Azərbaycanın müdafiə imkanlarının, o cümlədən müdafiə sənayesinin bəzi elementləri ilə tanış olacaq. Hazırda nümayəndə heyətlərinin görüşü zamanı biz bu imkanları birmənalı şəkildə müzakirə edəcəyik. Azərbaycan müdafiə avadanlığının əksər hissəsini istehsal edərək, güclü müdafiə sənayesi potensialını yaradıb. Həmin avadanlıq həm bizə lazımdır, həm də müasir müdafiə avadanlığına malik olan 10-a yaxın ölkənin mühüm ixracatçısına çevrilmək imkanıdır. Burada təlimlər də var, çünki İkinci Qarabağ müharibəsi və sonradan antiterror əməliyyatı hərbi qulluqçularımızın yüksək peşəkarlığını nümayiş etdirdi. Onlar altı və ya yeddi müdafiə xəttinə, müxtəlif müdafiə istehkam infrastrukturuna baxmayaraq, təxminən otuz il işğal altında olan ərazimizi çox mürəkkəb coğrafi relyef şəraitində azad edərək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qısa müddət ərzində tam bərpa edə bildilər. Beləliklə, sabah, həmçinin xüsusi təyinatlılarımız cənab Prezidentə təqdim olunacaq. Bir sözlə, düşünürəm ki, müdafiə sahəsində əməkdaşlıq, təlimlər və potensial qaydada müdafiə avadanlığının birgə istehsalı, Azərbaycandan Somaliyə onun təchizatı əməkdaşlığımızın mühüm sahələrindən biri olmalıdır.

Mən, həmçinin dövlət xidmətləri sahəsində işbirliyinin əhəmiyyətini vurğulamaq istərdim. Əslində, bu gün imzalanmış razılaşmalardan biri həmin sahəni əhatə edir. Azərbaycanda artıq uğurla işləyən sistem - ASAN dövlət xidmətləri sistemi bir çox beynəlxalq mükafatlara layiq görülüb. Ən mühüm mükafat isə Azərbaycan xalqının verdiyi qiymətdir. Çünki Azərbaycanda ASAN xidmətlərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır. Bilirəm ki, Prezidentin proqramında həmin xidmət mərkəzlərindən birinə səfər var və əgər siz qərar qəbul etsəniz, bəyənsəniz, biz sizin ölkədə oxşar sistemi qura bilərik."

Daha sonra Somali Prezidenti bəyanatla çıxış edib. Prezident Hasan Şeyx Mahmud xalqı dünyanın bu hissəsində sabit və firavan bir ölkə kimi qalib gəlməyə müvəffəq olub.

Biz Azərbaycanın qazandığı təcrübəni bölüşmək istərdik və Sizin praktik təcrübənizi öyrənməyə hazırıq. Cənab Prezident, qeyd etdiyiniz bütün əməkdaşlıq sahələri hər ikimiz və xüsusilə də Somali üçün çox faydalıdır. Somali çətin dövrdən çox parlaq gələcəyə keçid edən ölkədir. Somali zəngin resursları və böyük potensialı olan ölkədir. Lakin şərait inkişaf etməyə imkan verməyib. Azərbaycan kimi yaxşı tərəfdaşlarla ölkəmizin potensialı üzə çıxacaq və o, proqnozlaşdırılabilən olacaq. Azərbaycandan öyrənə biləcəyimiz digər əsas sahələr proqnozlaşdırılabilən siyasət və proqnozlaşdırılabilən inkişaf siyasətidir.

Bu gün imzaladığımız sazişlər Azərbaycanın təcrübəsindən istifadə etmək üçün strukturlu çərçivə rolunu oynayır, həmçinin ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır. Cənab Prezident, bu gün, sadəcə, başlanğıcdır. Somali və Azərbaycan təkcə iqtisadi artım və təhlükəsizlik üçün baxışı bölüşmür. Biz xalqlarımız üçün daha yaxşı gələcək yaratmaq naminə möhkəmlik, qətiyyət və ambisiya ruhunu bölüşürük. İnşallah, Sizi müəyyən bir vaxtda Somalidə qarşılamağa ümid edirik."

# Ermənistanı bürüyən QƏRB VULQARLIĞI

**Cənubi Qafqazda məskunlaşan xalqlar üçün Qərbin "ixrac" etdiyi dırnaqarası "dəyərlər" tamamilə yaddır və bunu ermənilər arasında az sayda "başa düşənlər" artıq həyəcan təbili çalmaqdadırlar. Qərbə meyilli olan haylar isə bu reallığı başa düşə bilmirlər və görünür, qarşılaşdıqları "iyrənc" mənzərələrdən nəticə çıxarmaqda çətinlik çəkirlər. LGBT, cinsi azlıqlarla bağlı qarşılaşdıqları "eybəcər" təzahürlərin məhz haradan "qaynaqlandığının" fərqində olan haylar artıq bilməlidirlər ki, bu, Qərbdən gələn və Ermənistanı bürüyən vulqarlıqdır.**




## Haylar "ziyanın" yarısından qayıtmasalar daha "acınacaqlı" durumla qarşılaşacaqlar

Çoxdandır ki, hayların yan-yörəsində cinsi azlıqlar "tüğyan" etməkdədirlər və indi Ermənistanda "meydan sulayan" həmin o "üzdəniraqlar" erməni cəmiyyətində böyük bir "çirkab" yaradıblar və deyəsən, ermənilər daha bunu görməməzdən gələ bilmirlər. Əks halda, həmin ölkədə bununla bağlı narazı kütlə peyda olmazdı. Artıq ermənilər arasında bir çoxları qəti şəkildə əmin olublar ki, yaşadıqları ölkədə LGBT təbliğatının aparılması və qeyri-standart oriyentasiyalı insanların olması bütövlükdə onların cəmiyyətini uçuruma aparır. Görəsən, ona da əmin olublarmı ki, həmin o iyrənc vəziyyət məhz Qərbin "ixrac" etdiyidir və beləcə "qucaq açdıqları" təqdirdə Ermənistanı bürüyən Qərb vulqarlığı erməni cəmiyyətində daha da geniş şəkildə yayılacaq?

Kim Qardaşyan kimi "əxlaqsızlıq nümunəsinin" çoxdandandır ki, bir "üz qarası" olaraq onsuz da erməni cəmiyyətinə kifayət qədər utancverici olması fonunda, hələ üstəlik cinsi azlıqlar da bu çirkin mənzərəni daha da "zənginləşdirmiş" və daha da "rəngarəng" etmiş olublar. Cənubi Qafqazın bir ölkəsində "göy qurşağı" kimi boyananların "yad ünsür" olduqları gec də olsa haylar tərəfindən dərk edilməsə, erməni cəmiyyətinin hansı vəziyyətdə olacağı artıq əminliklə proqnozlaşdırıla bilər. Doğrudanmı belə bir vəziyyəti yaradan Qərb, Avropa ermənilərə çox lazımdır, yoxsa, haqqında qeyd etdiyimiz "iyrənc" mənzərənin yaranmasından bir dərs ala bilmirlər? Qərb vulqarlığının Ermənistanı bürüdüyündən hayların nəticə çıxarmaları çoxdan lazım idi, amma ziyanın yarısından qayıtmasalar daha "acınacaqlı" durumla qarşılaşacaqları qətiyyən təkzib edilə bilməz.

## Qərb vulqarlığının "təzahürləri" erməni cəmiyyəti üçün qəbulolunan hesab edilsə də, Cənubi Qafqaz üçün tamamilə yaddır

Qərbə meyl etmək, hətta "qucaq açmaq" onun dırmaqarası "dəyərlərini" Ermənistana gətirmiş oldu. Avropa İttifaqına qoşulmaq, Qərb tərəfə meyilli olmaq naminə Cənubi Qafqazın bir ölkəsi öz daxilində çirkab dolu şəraitə göz yumur. Postsovet məkanı ölkələri arasında Ermənistan belə dırnaqarası "ağıllı ölkə" oldu ki, hamıdan fərqli şəkildə həmin Qərb, Avropa İttifaqı naminə "hər şeyi" qurban verməyə razı oldu? Axı Ermənistandan fərqli olaraq, hər bir ölkə öz dəyərlərini qorumağa çalışır və kənar "təsirlərdən", özü də cirkab yaradan müdaxilələrdən qorunmaq üçün mübarizə aparır. Bir tərəfdən kilsənin rolunu guya üstün sayan həmin o erməni cəmiyyəti indi nədən ruhani keşişin qaldırdığı cinsi azlıqlar məsələsi ilə bağlı müzakirənin əhatə dairəsindən kənarda qalmalı olub? Yoxsa, Ermənistanı bürüyən qərb vulqarlığı "xoşagələn" sayılır və bu məqamda ruhani keşişi və onun qaldırdığı "məsələni" heç vecində də alan yoxdur? Yəqin ki, hayların Qərbdən "götürdükləri" qənaətbəxş sayılır və ortada olan "mənzərə" də onlar üçün "adi hal" kimi qəbul olunur. Əgər belədirsə, yenə də həmin o Qərb "dəyərlərini" öz ölkələrinə "idxal" etməyə davam etsinlər. Ermənistanı bürüyən Qərb vulqarlığının "təzahürləri" görünür, erməni cəmiyyəti üçün qəbulolunan hesab edilir, amma haylar bilməlidirlər ki, bütün bunlar ümumilikdə, Cənubi Qafqaz üçün tamamilə yaddır, eyni ilə özləri yad olduqları kimi...

Eynicinsli münasibətlərinin artıq qanuniləşdirilməsi problemini avroskeptiklərin məhz əsas arqument kimi göstərmələri də deyəsən, erməni cəmiyyətini "yuxudan oyada" bilməyib. Haylar inteqrasiya adı altında hansı yolu tutublar? Bütün erməni cəmiyyətini cinsi azlıqlara çevirməyi "inteqrasiya" kimi qəbul edirlərmi? Qərb, Avropa "dəyərləri" məhz dar şalvar geyinmiş, bədəninin hər yeri pirsinqli oğlanlarla gey-paradlar keçirmək kimi təzahürlərə səbəb olursa, bundan erməni cəmiyyəti nəticə çıxarmalı idi və əslində, həmin cəmiyyətdə çoxdan bir rezonans da olmalı idi. Lakin hələ də hansısa miflər, uydurmalar, Qərbə meyillilikə bağlı illüziyalar başlarını elə qarışdırıb, elə xarab edib ki, ortada olan acınacaqlı vəziyyəti, erməni cəmiyyətini gələcəkdə daha iyrənc durumun gözləməsi ilə bağlı real təhlükəni görmürlər.

## Erməni cəmiyyətində tibbi, psixoseksual pozğunluq və ya hayların Qərbdən "idxal etdikləri" transeksuallıq meyilləri var

İndi erməni cəmiyyəti üçün ən acınacaqlı olan odur ki, hayların böyük əksəriyyəti LGBT və cinsi azlıqlarla bağlı məsələni sadəcə olaraq, həmin cəmiyyətdə bu və ya digər dərəcədə mövcud olan tibbi, psixoseksual pozğunluq hesab edirlər. Elə hesab edirlər ki, "müasirlik" dedikləri elə məhz budur və bunu qadağan etsələr də, etməsələr də, icazə versələr də, icazə verməsələr də erməni cəmiyyətində həmin "təzahürlər" olacaq. Maraqlıdır, niyə? Nəyə görə istənilən halda olmalıdır və nəyə görə istənilən halda olacaq, deyə düşünürlər? Həmin o cinsi azlıqların olmasını öz aralarında solaxayların, altıbarmaqlıların olması ilə müqaisə etmələri belə nəyə işarədir? Yoxsa, erməni cəmiyyətinin buna "meyilli" olduğu qənaətindədirlər və yaxud, həqiqətənmi həmin cəmiyyət buna meyillidir?

Cinsi azlıqların, ümumiyyətlə, bu "kateqoruyadan" olan insanların iştirakı ilə Ermənistanda "qürur paradları" təşkil etmək absurddur. Bunlar "qürur" deyil, axmaqlıqdır və parad da elə "axmaqlıq paradı" kimi bütün dünyanın normal insanları arasında qəbul olunmaqdadır. Məsələ burasındadır ki, haylar arasında belə düşünülür ki, onlara fikir verməsələr "dinc" yaşaya bilərlər və bununla mübarizə aparmaq axmaqlıqdır. Ən təəccüblüsü odur ki, haylar elə hesab edirlər ki, Qərbə, Avropaya meyl etsələr də, etməsələr də öz aralarında "qeyri-adi" oğlanlar və qızlar olacaq. Hətta belə bir fikir də var ki, ehtiras ayrı, siyasət ayrıdır. Amma apardıqları siyasətin, özü də Qərb yönümlü siyasətin məhz həmin o "iyrənc" ehtirası formalaşdırdığı deyəsən, dərk edilmir. Dərk edilmir ki, məhz həmin o siyasət sayəsində belə vəziyyət yaranıb və Ermənistanı bürüyən Qərb vulqarlığı hələ bundan sonra daha acınacaqlı hallar vəd edir.

Homoseksuallığın adi hal kimi qəbul olunmasının normal olduğunu iddia edən haylar, belə çıxır ki, qətiyyən erməni cəmiyyətində olan belə "çirkin təzahürlər" haqqında "düşünmək" belə lazım olmadığı qənaətindədirlər. Belə təzahürlərin haradan gəlməsi də onların qətiyyən veclərinə də deyilmiş. Hətta "bəhanələri" də kifayət qədərdir. Məsələn, Rusiyanın Volqoqrad vilayətindən olan Kirill Atayev kimi bir transseksual bloggerin növbəti dəfə Ermənistanda "peyda olmasını" bəhanə edirlər və transeksualların hər yerdən "gələ bilməsi" iddiası ilə çıxış edirlər. Üstəlik, hələ bir onu da utanmadan bildirirlər ki, əgər gələn həmin o transeksuallar "layiqli" insandırlarsa, onları "narahat etmirlərsə", deməli, onlar normal qəbul olunmalıdırlar. Həqiqətən də bu yanaşmada təəccüblü və absurd dolu məqmlar kifayət qədərdir. Əvvəla, ermənilər transeksualları həqiqətən də layiqli hesab edirlərmi? Əgər hesab edirlərsə, o zaman niyə bir tərəfdən də həmin o reanseksuallarla bağlı ortaya çıxan "təzahürləri" bu və ya digər dərəcədə mövcud olan tibbi, psixoseksual pozğunluq sayırlar? Pozğunluq nə vaxtdan normal təzahür hesab olunası oldu? Digər tərəfdən də axı haylar başa düşə bilmirlərmi ki, transeksuallar və transeksuallıq erməni cəmiyyətini bütövlükdə həmin o cəmiyyətə çevirir? Bunu normal hesab edirlərmi? Ümimiyyətlə, Ermənistanı bürüyən Qərb vulqarlığını normal sayırlarmı?

***İnam Hacıyev***

# Konstitusion hüquqlara malik suveren müasir Azərbaycan

## Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb

***Azərbaycan dövləti xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasət həyata keçirir. Ana Qanunumuz olan Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Konstitusiyamıza və dövlət suverenliyimizə olan ali ehtiram və dəyərin ifadəsidir.***

Sərəncama əsasən, konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcəyi Sənəddə əksini tapmışdır. "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Tədbirlər planında Azərbaycan Respublikasının Dövlət Suverenliyi Gününün və Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması ilə əlaqədar müxtəlif məzmunlu tədbirlər həyata keçiriləcəkdir. Belə ki, yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi, "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə Tədbirlərin, "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş xüsusi iclasın, forumların, konfransların, simpoziumların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi və s. nəzərdə tutulur. Eyni zamanda, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi də tədbirlər planında yer alıb. "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markalarının buraxılması, yerli və xarici mütəxəssislərin iştirakı ilə Azərbaycan Respublikasının dövlət suverenliyinin təmin olunmasına həsr edilmiş elmi-praktik konfransların təşkili, elmi tədqiqat işlərinin aparılması, əsərlərin, hüquqi şərhlərin, monoqrafiyaların, məqalələrin nəşri, kitabların buraxılması da tədbirlər Planına uyğun olaraq həyata keçiriləcəkdir. Mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və blogerlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili də nəzərdə tutulubdur. Bu və ya digər tədbirlər aidiyyatı orqanlar, təşkilatlar tərəfindən reallaşacaqdır.

### HÜQUQİ, DÜNYƏVİ DÖVLƏT QURUCULUĞU

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olub. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayıb, öz ideallarına həmişə sadiq qalıb və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edib. Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.



Konstitusiyanın qəbulu müstəqil dövlətimizin Ana Qanunu olaraq vətəndaşların azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Ulu Öndər Heydər Əliyev yeni Konstitusiyanın məramı, qaynaqları, mahiyyətinə aydınlıq gətirərək ölkənin Əsas Qanunu barədə belə deyirdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. Tarixi ardıcıllığa nəzər salsaq görərik ki, bir-birinin ardınca qəbul olunan sənədlər demokratik dəyərlərə əsaslanırdı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.




Son 21 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə töhfələr verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində uğurlar əldə edilib, ardıcıl olaraq sosial-iqtisadi islahatlar həyata keçirilib. Yeni dövrün tələblərinin yaratdığı zərurət Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilməsi ilə nəticələnib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da gücləndirilməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişləndirilməsindən irəli gəlirdi. Cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması konstitusiyada islahatların aparılmasını zəruri etmiş oldu. Yeni dövrün tələblərinin yaratdığı zərurət Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilməsi ilə nəticələnib. 2016-cı ildə növbəti dəfə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxdı.

### SUVERENLİYİMİZ VƏ HÜQUQİ DƏYƏRLƏRİMİZ

2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq ölkəmizdə bu il "Konstitusiya və Suverenlik İli" elan edilib. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə qazandı. Bu gün Azərbaycan qalib ölkə kimi dünyada tanınır. Vətən müharibəsi Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim həmin ərazilərdə dalğalanacaq. 44 gün davam etmiş Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra Azərbaycan Konstitusiyasının tələblər və müddəaları yerinə yetirilib. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq" - deyə Prezident bildirib.

2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar". Müzəffər Ordumuz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ermənilərə qarşı qisas əməliyyatları keçirmiş və düşmən layiqli cəzasını aldı. 24 saatdan az davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tör-töküntülərinə qarşı antiterror tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Antiterror tədbirləri Azərbaycanın hərbi gücünün hərbi qüdrət səviyyəsinə qalxdığını, ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə davam etdirildiyini və xalqımızın qələbə əzminin sarsılmaz olduğunu bir daha nümayiş etdirdi. Bu tədbirlər nəticəsində Qarabağdakı xunta rejimi darmadağın edildi.

2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi bərpa edildi. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilir. Bu gün suveren və bütöv Azərbaycan yeni reallıqlar yaradıb. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlətin reallıqlarını bir daha təcəssüm etdirir. Qalib Sərkərdə, Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir Sənəddir. Cari il ərzində sözügedən tədbirlər Planı əsasında genişmiqyaslı tədbirlər həyata keçiriləcəkdir.

**_Zümrüd BAYRAMOVA_**

# Dağıdıcı müxalifət “siyasi məhbus” şousunu əsas gəlir gətirən sahə hesab edir



***Belə bir deyim var: ”satqının və xəyanətkarın milləti olmur”. Günümüzün reallığında xaricdəki antimilli ünsürlərin, eləcədəki daxildəki siyasi partiya dəllallarının Azərbaycan xalqının maraqlarına zidd fəaliyyət göstərdiklərini görüncə, məsəlin nə qədər haqlı və əsaslı olduğu aydın olur. Məlum olur ki, qəpik-quruşa aldanıb, özlərini satan ”sapı özümüzdən olan baltaları” bundan sonra səhv yoldan, bəd fəaliyyətlərindən çəkindirmək mümkün deyil. Çünki onların beyinləri yuyulub, qəlbləri çirkabla kirlənib. Fikir daha aydın olsun deyə, bir misal çəkim: Özünü partlatmağa qərar verən terrorçunu maarifləndirici söhbətlə əməlindən çəkindirmək olarmı?***

”Özünü partlatmaqla xalqına və dövlətinə zərər verirsən, Allahın verdiyi şirin canından olursan” deməklə terrorçuya sağlam, ağıllı qərar verməyi çatdırmaq olarmı? Birmənalı şəkil də demək olar ki, terrorçunu heç bir söhbətlə, ideya və təkliflə verdiyi qərarından döndərmək mümkün deyil. Ona görə ki, terrorçu kənar təsirlərin altındadır. Digər tərəfdən terror əməli ilə neçə -neçə insanın həyatına son qoyan terrorçu xain yol tutmağı özünün nicatı və həyat mənbəyi hesab edir. Eyni ilə beyinləri zir-zibillə doldurulmuş xaricdəki antimilli ünsürlər və daxildəki dağıdıcı müxalifət terrorçulara xas xarakterlə islah olunmaq, sağlam, dövlətçilik maraqlarına uyğun fəaliyyət göstərmək istəmirlər. Fikir verin, 30 illik erməni işğalına son qoyuldu. Bir dəfə də olsun dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər Azərbaycan xalqını qələbə münasibəti ilə təbrik etmədilər. Əksinə istər müharibə dövründə, istərsə də parlaq hərbi qələbədən sonra dağıdıcı müxalifət partiyaları və onların funksionerləri ümumxalq birlikdən kənarda qaldılar.

## Əli Kərimli, Cəmil Həsənli kimlər xalqdan uzaqdırlar, dövlətə qarşı laqeydirlər

AXCP və Müsavat 2020-ci ilin iyulunda Tovuz rayonu erməni terror maşını terror aktları həyata keçirən zaman 43 siyasi partiyanın imzaladığı ”Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair” bəyanatını imzalamaqdan imtina etdilər. 44 günlük Vətən Müharibəsi zamanı bir neçə dəfə siyasi partiyalar bir araya gəlib, Ermənistanın vandal hərəkətləri və dinc sakinlərin raket atəşinə tutulmasına etiraz əlaməti olaraq dünya xalqlarına, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər ünvanladıqları zaman Müsavat və AXCP həmin müraciətlərə qoşulmadılar. Prezident Adminstrasiyasında siyasi partiyaların rəhbərləri ilə keçirilən görüşlərdə AXCP, Milli Şura və Müsavat funksionerləri qatılmadılar. Hətta siyasi dialoq çağırışlarına da əhəmiyyətsiz yanaşdılar. Bütün bunlar Əli Kərimlinin, Cəmil Həsənli, Arif Hacılının və digərlərinin şər qüvvələrdən asılı olduqlarını nümayiş etdirdilər. Bu məqamda haqlı və əsaslı suallar yaranır: Necə ola bilər ki, vətəninə yardım etməyin vacib olduğu bir mərhələ də susan? Deməli bir daha aydın olur ki, onların fasilə söylədikləri ”Vətən”, ”Xalq” sözləri sadəcə siyasi dividend əldə etmək üçün deyilir. Əslində xalqdan uzaqdırlar, dövlətə qarşı laqeyddirlər. Onlar üçün başlıca hədəf və məqsəd ölkəmizin imicinə xələl gətirilmək və erməni lobbisinin istəyinin yerinə yetirilməsidir. Qarşılığında isə pul almaq və həyatlarını yeni tapşırıqları icra etmək üçün davam etdirməkdir.

## Əli Kərimlinin ”siyasi məhbus” siyahısı yalan üzərində qurulub

44 günlük Vətən Müharibəsindən sonra xarici ermənipərəst dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Belə demək olar ki, ölkəmizə qarşı xarici məkrli dairələr tərəfindən informasiya müharibəsi elan edilib. Hər gün müxtəlif dövlətlərin KİV-lərində ölkəmizlə bağlı şər və böhtan xarakterli informasiyalar dərc edilir, məlumatlar paylaşılır. Sual olunur, olubmu Milli Şura, AXCP rəhbərliyi Avropanın və ABŞ-ın qaranlıq dairələrinin ölkəmiz haqında sərsəm iddialarına, əsasız ittihamlarına cavab versinlər? Ən azı sözügedən ölkələrin mətbu orqanlarını, hakimiyyət nümayəndələrini qınasınlar. Susublar, elementar partiya mövqeyini belə qeyd etməyiblər. Nədən ki, ABŞ-ın və Avropanın müəyyən maliyyə dairələrindən qranlar alırlar.

Bəzən ”siyasi məhbus” şousundan bəhrələnmək üçün uydurduqları məlumatları onlara ötürməklə, özlərinə dəstək qazanırlar. Misal üçün bir qədər əvvəl Almaniyadakı nasistlərin əsas ideoloqlarından olan Frank Şeveberin, ”mən tez-tez Leyla Yunusdan Azərbaycandakı insan hüquqlarının vəziyyəti, mətbuatını durumu ilə bağlı məktublar alıram” deyə bildirməsini göstərmək olar. Sonradan aydınlaşdı ki, Leyla Yunus vasitəsi ilə F.Şveberə çatdırılan məlumatları AXCP sədri Əli Kərimli göndərir. Ə.Kərimli əsas gəlir gətirən sahənin ”siyasi məhbus” şousu olduğu üçün ona daha çox müraciət edir. Tez-tez ”siyasi məhbus” məsələsindən danışan Ə.Kərimli iddia edir ki, guya ölkəmizdə 319 siyasi ”siyasi məhbus” var. Lakin həmin siyahıda kimlər var, onların cinayətləri nədən ibarətdir, kimi əsas məqamları qeyd edə bilmir. Bu da onu təsdiq edir ki, Ə.Kərimlinin ”siyasi məhbus” siyahısı yalan üzərində qurulub. Əslində siyahı, filan mövcud deyil. Ardıcıl suallar qarşısında iddia edir ki, guya Nazim Məmmədov, Rüfət Səfərli, ”Tolum” və ”Meydan” TV-nin, eləcə də ”Abzasmedia”-nın əməkdaşları ”siyasi məhbus”lardır. Lakin Nazim Məmmədov məhkəmə qarşısında açıq şəkil də bəyan etdi ki, ”onun adının ”siyasi məhbus” siyahısına salınması yanlış addımdır, o özünü ”siyasi məhbus” hesab etmir”.

Rüfət Səfərlinin yaxınları da övladlarının adının ”siyasi məhbus” olaraq çəkilməsin yolverilməz olduğunu söyləyiblər. Söz yox ki, ”Tolum” və ”Meydan” TV-nin, eləcə də ”Abzasmedia”-nın əməkdaşları ”siyasi məhbus”lar ola bilməz. Çünki onlar siyasi dərnəklərin təbliğatçıları olsalar da, özlərini siyasətçi olaraq təqdim edə bilməz. Qısası, Ə.Kərimli özünü xarici tərəfdaşlarını ”siyasi məhbus” alverində təcrübəli tacir kimi təqdim etməyə çalışsa da əslində küçə avarasından və alverçisindən uzağa gedə bilməyir. Təbii ki, bu cür davranışı və anormal əməlləri ilə bir qədər də özünü cəmiyyətin gözündən salır və rüsvay edir.

***İLHAM ƏLİYEV***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Ermənistanın “dollar bulağı” bağlanır...

"Budur, artıq USAİD-in ləğvi barədə məlumatlar Ermənistanda ciddi panika yaradıb"

USAİD (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) deyilən qaragüruh təşkilat artıq bağlanmaq üzrədir. ABŞ-ın yeni prezidenti Donald Tramp daha çox xarici ölkələrdə daxili qarışıqlıq, hakimiyyət çevrilişləri və siyasi təxribatlar üzrə ”ustalaşan” bu təşkilatın ömrünə son qoymaq istəyir. Çox güman ki, yeni rəhbərlik bu təşkilatın ilk əvvəl yeni ABŞ iqtidarının özü üçün də təhlükəli mahiyyət daşıdığına əmin olduğu üçün onun ”fatihəsini vermək” qərarına gəlib. Büdcəsi 27 milyard dolları ötən bu təşkilat artıq öz sahibləri üçün də arzuolunmaz həddə çatıb. Artıq bu qurumun ləğvi istiqamətində ilk addımlar da atılmaqdadır.

Bu təhlükəli təşkilat həm də dünyada yürütdüyü ikili siyasəti ilə də ”məşhurdur”. Daima Azərbaycan əleyhinə mənfi mövqeyi ilə seçilən bu təşkilat, bunun tam əksinə olaraq Ermənistana qarşı ”yüksək səxavəti” ilə ad çıxarıb. USAİD-in Ermənistana yardımlarına nəzər yetirsək həm də Qərbin ikibaşlı siyasətinin açıq konturlarını sezə bilərik. Elə ondan başlayaq ki, USAİD 1992-ci ildən bəri Ermənistana əhəmiyyətli maliyyə yardımları göstərir. 2021-ci ilə qədər bu yardımların ümumi məbləği 3 milyard dollardan çox olub.

Ötən ilin sentyabr ayında USAİD Ermənistana beşillik yardım paketini 120 milyon dollardan 250 milyon dollara çatdırıb. Bu yardımların ”əsas məqsədi” Ermənistanda demokratiya və iqtisadiyyatın inkişafına dəstək verməkdir. Maliyyə vəsaiti təbii fəlakətlərdən qorunma, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi kimi sahələrə yönəldiləcək.

USAİD-in Ermənistana ayırdığı maliyyə yardımı ABŞ-ın ”Xarici Hərbi Maliyyələşdirmə” proqramı ilə əlaqələndirilir. Bundan əlavə, USAİD Ermənistanda davam edən insan haqları problemlərinin həlli üçün 2,5 milyon dollar ayırıb. Vəsait LGBT fərdlərinin hüquqlarının müdafiəsinə, gender əsaslı zorakılıqla mübarizə və digər tədbirlər üçün nəzərdə tutulub. USAİD Ermənistanı həm də cinsi azlıqlar ”cənnətinə” çevriməyi də planlaşdırır. Görünür, hər nə də olsa, Rusiya ilə mübarizədə bu məsələnin Nikol Vavayeviçin çox köməyinə gələ biləcəyini düşünürlər...

USAİD-in Cənubi Qafqaz ölkələrinə göstərdiyi yardımı müqayisə etsək, dərhal ikili standartlar siyasəti güzgü kimi qarşımızda canlanır. Hamı bilir ki, bu təşkilat son illər daha çox ermənipərəst mövqe sərgiləməyə, Azərbaycan əleyhinə daha şiddətli qara piar yürütməyə çalışırdı. Buyurun, təkcə bir faktı qeyd edək. 44 günlük böyük zəfərimizdən sonrakı üç ildə Xankəndini könüllü tərk edən ermənilərə Qərbin göstərdiyi dəstək 30 il ərzində etnik təmizləməyə məruz qalan bir milyondan çox qaçqın və köçkünümüzə göstərdiyi yardımdan çoxdur! Təsəvvür edirsiniz bu nə deməkdir? Bu, USAİD-in simasında Qərb dairələrinin Cənubi Qafqazda Azərbaycana olan riyakar yanaşmasının açıq nümayişidir. Missiyası ”Amerika xalqından dünyaya yardım” kimi bəyan edilən USAİD-in ölkəmizə dəstəklə bağlı siyasəti də ikili standartların bariz nümunəsi sayıla bilər. Qərb siyasi institutları sırasında yer alan USAİD heç vaxt Ermənistanın Azərbaycana təcavüzünü pisləməyib, bir milyondan çox qaçqının öz torpaqlarına qayıtması üçün formal belə olsa səy göstərməyib.

Eyni zamanda, USAİD 2024-cü maliyyə ilində öz xoşları ilə Qarabağdan könüllü şəkildə köçən ermənilər üçün 7 milyon dollardan çox humanitar yardım edib. Bununla da ABŞ-ın 2020-ci ilin sentyabrından bəri Qarabağla bağlı cavab tədbirlərini dəstəkləmək üçün ümumi maliyyə yardımı 31 milyon dollara çatıb. Halbuki erməni faşistlərinin dinc azərbaycanlılara qarşı amansız qətliamı zamanı yurd-yuvasından didərgin düşən insanlara bu yardımların kiçicik hissəsi belə göstərilməmişdi.

Əlavə olaraq, ABŞ Dünya Bankının Ermənistan üçün Qlobal Güzəştli Maliyyələşdirmə Fonduna 5 milyon dollar ayırıb. Bundan əlavə, ABŞ Beynəlxalq Maliyyə Korporasiyası kənd təsərrüfatı və sahibkarlığa dəstək üçün 50 milyon dollar kredit ayırıb. Bütün bunlar nə deməkdir? Açıq-aşkar USAİD daima Ermənistan üçün ”dollar bulağı” funksiyası daşıyıb.

Budur, artıq USAİD-in ləğvi barədə məlumatlar Ermənistanda ciddi panika yaradıb. ”Hraparak” nəşri yazır ki, USAİD-in fəaliyyətinin dayandırılmasından sonra Ermənistanda bəzi təşkilatlar üzləşdikləri itkilərə görə ölkə hökumətindən kompensasiya tələb etmək niyyətindədir. Erməni nəşri bu təşkilatların maliyyələşdirilməsinin yaxın gələcəkdə bərpa olunmayacağını istisna etməyib və belə olan halda hakimiyyət ayrı-ayrı qeyri-hökumət təşkilatlarının maliyyə problemlərinin həllini öz üzərinə götürə bilər. Erməni nəşrinin yazdıqlarına baxaq: ”USAİD ofislərinin bağlanması ilə bağlı qərar illərdir Amerika proqramlarından istifadə edən erməni fəallar arasında panikaya səbəb olub. Panika hakimiyyət dairələrini də əhatə edib, çünki onlar başa düşürlər ki, indi xarici dəstəkdən məhrum olanlar üçün maliyyə mənbəyi rolunu özləri oynamalıdırlar”.

Bir fakt açıq-aşkar ortadadır ki, USAİD-in Ermənistana dəstəyi guya sosial-iqtisadi dayanıqlılığı gücləndirmək, ticarətin şaxələndirilməsini dəstəkləmək və keçmiş Qarabağ münaqişəsindən sonra İrəvana dönən ermənilərə ”kömək etmək məqsədi” daşısa da, əslində, ABŞ Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq üçün çapalayır. Co Bayden iqtidarı bu məsələdə USAİD-in maliyyə və informasiya təxribatı barədəki xidmətlərindən var gücü ilə yararlanmağa çalışırdı. Görünən odur ki, Ermənistan üçün qrant və ”dollar bulağı” bir müddət bağlı olacaq. Əlbəttə, yeni administrasiyaya yol tapana qədər”.

*EKSPERT FİKRİ*

# Məktəblərdə maliyyə savadlılığı şagirdlərə tədris olunmalıdır?

"Şagirdlərə iqtisadi biliklərin öyrədilməsi son illərdə daha çox müzakirə olunmağa başlayıb və dünyanın bir çox yerində, o cümlədən Azərbaycanda da məktəblərdə maliyyə savadlılığının tədrisi vacib hesab olunur. Gələcəyin iqtisadiyyatında uğur qazanmaq üçün tələb olunan əsas bacarıqlardan biri maliyyə savadlılığıdır. Bu sahə şəxsi büdcə idarəçiliyi, investisiya və sahibkarlıq kimi mövzuları əhatə edir. Məktəblərdə bu biliklərin öyrədilməsi şagirdlərə həyatlarında lazım olacaq praktiki biliklər qazandırmaqla yanaşı, onların öz gələcəklərinə daha sağlam bir əsas yaratmalarına kömək edər".





Bu sözləri TİHA-nın sədri, təhsil eksperti Əmrah Həsənli SİA-ya açıqlamasında deyib. Onun sözlərinə görə, şagirdlərə şəxsi büdcə idarəçiliyinin öyrədilməsi, onların gələcəkdə pul idarəetməsini effektiv şəkildə həyata keçirmələrinə imkan yaradacaq: "Bu dərslərdə əsas məqsəd, şagirdlərə gəlir və xərclər arasındakı əlaqəni başa salmaq, qənaət etməyi və öz maliyyə hədəflərini müəyyənləşdirməyi öyrətməkdir. Bu bacarıqlar, şagirdlərin böyüdükcə maliyyə stresslərini azaldacaq və onların özlərinə maliyyə hədəfləri qoymalarına yardım edəcək.

İnvestisiya sahəsində təhsil şagirdlərə riskləri və gəlirləri analiz etməyi öyrətmək, eyni zamanda onların uzunmüddətli maliyyə planlamasını formalaşdırmaq baxımından çox əhəmiyyətlidir. Şagirdlərə səhmlər, istiqrazlar, əmlak və digər investisiya növləri haqqında əsas biliklər verilməklə, gələcəkdə iqtisadi vəziyyətlərini gücləndirə biləcək maliyyə qərarları qəbul etmələrinə şərait yaranar.

Sahibkarlıq dərsləri isə şagirdlərə işqurma, biznes ideyalarını inkişaf etdirmə və idarəetmə bacarıqları qazandırır. Sahibkarlıq düşüncəsi, yaradıcı düşünmə və riskləri idarə etmə qabiliyyəti inkişaf etdirir. Bu, şagirdlərə yalnız öz işlərini qurmaqla bağlı deyil, həm də komanda işini, liderlik qabiliyyətlərini və əmək bazarında uğur qazanmaq üçün lazım olan digər bacarıqları öyrədir".

Ekspert bildirib ki, şagirdlərə maliyyə savadlılığı öyrədilməsi onların gələcəkdə maliyyə qərarlarını daha düzgün və məlumatlı şəkildə qəbul etmələrini təmin edir: "Sahibkarlıq və maliyyə bilikləri şagirdlərə öz bizneslərini qurmaq və ya mövcud şirkətlərdə effektiv işləmək üçün lazım olan bilikləri verir. Bu, daha çox iş yerlərinin yaranmasına və iqtisadiyyatda yeni təşəbbüslərin ortaya çıxmasına gətirib çıxara bilər. Məktəblərdə maliyyə savadlılığı dərslərinin tədrisi üçün müvafiq müəllimlər və tədris materialları lazımdır. Bəzi məktəblərdə bu cür resursların olmaması tədrisin keyfiyyətini azalda bilər. Xüsusilə dövlət məktəblərində tədris üçün infrastruktural problemlər mövcuddur. Bu dərslərin effektiv tədrisi üçün texnoloji avadanlıqlar və müasir tədris üsullarına ehtiyac var.

Şagirdlərin yaş səviyyələrinə və anlama qabiliyyətlərinə uyğun olaraq bu mövzuları başa salmaq bəzən çətin ola bilər. Gənc yaşda bu mövzuları öyrətmək, şagirdlərə çətin gələ bilər, buna görə də dərslərin məzmunu doğru şəkildə hazırlanmalıdır. Beynəlxalq təcrübə göstərir ki, maliyyə savadlılığına dair dərslər bir çox inkişaf etmiş ölkələrdə artıq məktəb proqramlarının bir hissəsi halına gəlib. Məsələn, ABŞ, Kanada, Böyük Britaniya və Avstraliya kimi ölkələrdə bu sahədə çoxsaylı tədris proqramları mövcuddur. Avstraliya 2014-cü ildən etibarən məktəblərdə iqtisadi və maliyyə təhsili verilməsini məcburi edib.

Məktəblərdə maliyyə savadlılığının tədrisi yalnız şagirdlərin iqtisadi biliklərini artırmaqla qalmır, həm də onların gələcəkdə uğurlu və məsuliyyətli vətəndaşlar kimi yetişmələrinə dəstək verir. Bu sahədə təhsil sisteminin gücləndirilməsi, gələcək nəsillərin daha sağlam iqtisadi qərarlar qəbul etməsinə imkan yaradacaq. Lakin bunun həyata keçirilməsi üçün doğru resurslar, təlimatçı və infrastruktura ehtiyac vardır. Nəticə etibarilə, maliyyə savadlılığı məktəb proqramlarına daxil edilməlidir, amma bu addımın həyata keçirilməsi mərhələli və diqqətli olmalıdır".

***Xeyrənsə***

---

AÇIQLAMA

# "2027-ci ilə qədər 8 stansiyanın istismara verilməsi planlaşdırılır"

"Bildiyiniz kimi ötən il ölkə Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bu çərçivədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tədbirinin də ölkəmizdə keçirilməsi ölkəmizin bərpa olunan enerji siyasətini uğurla davam etdirməsinin bariz nümunəsidir. Bununla bağlı 2024-cü il ərzində bərpa olunan enerji layihələrinin icrası istiqamətində inamlı addımlar atılmışdır. Cari ildə xüsusilə diqqət çəkən hadisələrdən biri Xızı-Abşeron KES-də ilk külək turbinlərinin quraşdırılması olmuşdur. Artıq 3 külək turbininin inşası tamamlanıb və 2025-ci ilin sonuna qədər 240 meqavat gücündə sənaye miqyaslı külək parkının tam istismara verilməsi nəzərdə tutulur. Bununla yanaşı, 1 giqavat gücündə iki günəş və bir külək elektrik stansiyasının təməli qoyulmuş və bu istiqamətdə işlər sürətlə davam etdirilir. Eyni zamanda BP şirkəti ilə əməkdaşlıq çərçivəsində Cəbrayılda inşa ediləcək "Şəfəq" Günəş Elektrik Stansiyasının təhlil mərhələsi başa çatmış və stansiyanın təməlqoyma mərasimi COP29 çərçivəsində həyata keçirilmişdir. Ümumilikdə 2027-ci ilə qədər ümumi gücü təxminən 2 qiqavata çatan 8 stansiyanın istismara verilməsi planlaşdırılır". Bu sözləri Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Layihələrin idarə edilməsi şöbəsinin müdiri Cəbrayıl Əliyev SİA-ya açıqlamasında deyib. Onun sözlərinə görə, daha bir diqqətçəkən layihə isə Böyük-Şor gölündə yerləşən üzən günəş stansiyasıdır: "Stansiya hazırda sınaq mərhələsindədir və əldə edilən nəticələr bu tip layihələrin gələcəkdə genişlənməsi üçün böyük perspektivlər vəd edir.




Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədi ilə ölkəmizdə çoxsaylı layihələr həyata keçirilib və yeni layihələrin icrası istiqamətində ciddi addımlar atılır. Belə ki, 230 MVt gücündə "Qaradağ" GES ölkəmizdə xarici investisiya hesabına inşa edilmiş ilk stansiyadır. Bu stansiya sayəsində enerji balansımıza ildə 500 mln. kVt·saat yaşıl enerji daxil olacaq. Ümumilikdə ölkədə 98 elektrik stansiyası fəaliyyət göstərir ki, bunların 58-i su elektrik stansiyası, 5-i külək elektrik stansiyası, 9-u günəş elektrik stansiyası, 1-i məişət tullantılarının emalı, 3-ü isə hibrid elektrik stansiyasıdır. Ötən il ölkənin ümumi enerji balansında bərpa olunan enerji mənbələrinin payı su elektrik stansiyaları daxil olmaqla 1 792,6 MVt təşkil etmişdir ki, bu da ümumi istehsal gücünün, təxminən, 21,3 faizini təşkil etmişdir. 2024-cü il üzrə istehsal göstəricilərinə gəldikdə isə, ötən il Azərbaycanda 28,3 milyard KVt/saat elektrik enerjisi istehsal edilib ki, bunun da təxminən 3,8 milyard KVt/saatı bərpa olunan enerji mənbələrinin payına düşür. Belə ki, bərpa olunan enerji mənbələri üzrə göstəricilərə diqqət yetirsək, su elektrik stansiyalarında 3011 mln kVt·st, külək elektrik stansiyalarında 51,1 mln. kVt·st, günəş elektrik stansiyalarında 556,3 mln. kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 232,5 mln. kVt·st elektrik enerjisi istehsal edilmişdir".

***X. Piriyeva***

# İtirdiyimiz xüsusiyyətlər: yaxşılıq



***Sonuncu dəfə nə vaxt, kimə yaxşılıq etmisiniz? Ən son nə vaxt bir pişiyə yem vermisiniz məsələn, bir uşağı sevindirmsiniz, bir kimsəsizin qayğısına qalmısınız? Yaxşılıq edən və ya etməyən insanlar arasındakı fərqi düşündüyünüz zamanlar olubmu heç? Ümumiyyətlə, yaxşılıq sözü nəyi ifadə edir sizin üçün?***

İlkin baxışda o qədər də mürəkkəb mənası olmadığını düşündüyümüz yaxşılığı müəyyən etmək əslində asan deyil. Heç bir qarşılıq gözləmədən edilən köməkdir yaxşılıq, belə təsnif edilir. Amma bu sözün tarixi dünyanın yaranma tarixi ilə yarışır desək, yanılmarıq. Yaxşılıq anlayışı empatiya, həmrəylik, xeyirxahlıq, təmənnasızlıq və bir çox bu kimi anlayışları özündə ehtiva edir. Yaxşılıq anlayışını digər hisslərdən fərqləndirən və bizi başqalarından daha çox insan edən də budur - bütün yaxşı duyğuları özündə cəmləməsi. İnsana, heyvana, təbiətə yaxşılıq əslində dünyaya olan sevgidir.

İnsan övladı yaranışından bu günədək xoşbəxtlik, mənəvi rahatlıq tapmağın bütün mümkün yollarını axtarıb. İbadət etmək, başqalarına yardım etmək, kimsəsizə kimsə olmaq, ehtiyaclının əlindən tutmaq kimi istəklər beləcə yaranıb. Xeyirxahlıq insanlıq əlaməti olmağa başlayandan bu günədək insan mənəviyyatı da yüksəlib. Yazdıqca düşünürəm, yaxşılıq etməkdən nə vaxt bu qədər uzaqlaşdıq biz? Nədir bizi yaxşılıq etməkdən iyrəndirən, uzaqlaşdıran? Biz nə vaxt bu qədər daşqəlbli, hissiz-duyğusuz varlıqlara çevrildik, özümüzün xəbəri olmadan? Nə vaxt itirdiyimiz dəyərlər siyahısına yaxşılığı da əlavə etdik?

Əslində bütün dünyadakı insanlar bir-birinə görünməz bağlarla bağlıdırlar. Buna görə də etdiyimiz hər bir hərəkətin müəyyən mənada sonra bumeranq kimi özümüzə geri dönəcəyinin fərqində olmalıyıq. Etdiyimiz hər bir yaxşılıq bir gün mütləq özümüzə geri qayıdacaq. Təəccüblü deyil ki, yaxşılıq edən insanlar ətrafdakılar tərəfindən yaxşı insan kimi xarakterizə edilir və daha çox sevilir. Onlar çətinə düşəndə daha çox dayaq duran olur, kömək istəyəndə hamı öz köməyini təklif edir. Qəzəbli, aqressiv və ya eqoist insanlar tənhalıq hissini daha çox yaşayır, çünki yaxşılıq etmək hissi onlara yaddır.

Baxmayaraq ki, mahiyyət etibarı ilə pulsuz, bəzən hətta öz maraqlarımıza zidd olaraq, bəzən də öz həyatımızı, sağlamlığımızı, işimizi təhlükəyə ataraq yaxşılıq edirik, bir gün o yaxşılığın əvəzi bizə geri qayıdacaq. Övladımız hansısa təhlükədən xilas olanda, öz başımızı gələn hər hansı bir hadisə zamanı xəsarət almayanda "anası namaz üstə imiş", "bir tikə çörəyi ovsanata düşüb" kimi bənzətmələr eşidirik. Bu əslində bir zamanlar təmənna güdmədən etdiyimiz yaxşılıqların əvəzidir.

Qarşılaşdığımız hər yaxşı insan, həyatımızda baş verən hər yaxşı hadisə etdiyimiz yaxşılığın mükafatı kimidir. Yaxşı əməl nəticəsində yaranan vəziyyətlərdə daim sevinc, inam, etibar, minnətdarlıq kimi gözəl hisslər paylaşılır və bu da bizim enerjimizə sirayət edir. Ona görə də analarımızı bizə dua edəndə "Allah səni yaxşı insanlarla qarşılaşdırsın" deyirlər. Çünki yaxşı insan bizim taleyimizi dəyişə, pis hadisələrdən sığortalaya bilir. Yaxşı insanlar lütfdür.

Bioloji olaraq da yaxşılıq etdiyimiz zaman beynimizin yemək və istirahət anlarında stimullaşdırılan həzz və mükafat mərkəzi aktivləşir. Bu davranışlar təkrarlandıqca yaxşılıq etmək potensialımız artır, çünki orqanizmimiz bu həzzi təkrar yaşamaq üçün beynimizi, beynimiz isə bizi təhrik edir. Yaxşılıq etmək zamanla vərdişə çevrildikcə bədənimiz və beynimiz buna uyğunlaşacaq. Beləliklə, müsbət emosiyalar yaşamaq , xoşbəxt olmaq üçün yaxşılıq etmək vərdiş halına gələcək.

İnsan öz mənfəətlərini düşünmədən, özünə xeyri və ya zərəri olub-olmadığını düşünmədən bir məqsədə xidmət etdikdə həyatından razı qalır. İnsan hər şeyini itirə bilər - vətənini, evini, işini, əşyalarını. Bunlar bərpa oluna bilən itkilərdir. Amma duyğularını, empatiyasını itirən insan canlı ölüdür. Zorakılığın, irqçiliyin, münaqişələrin, təcavüzün və ədalətsizliyin hökm sürdüyü bir dünyada səssiz qalmaq insanlıqdan kənardır. İnsan düzəldə biləcəyi vəziyyətlərə səssiz qalmamalıdır, bir insana belə olsa yaxşılıq etmək dünyaya



yaxşılıq etməkdir.

Araşdırmalar da həm yaxşılıq edənin, həm yaxşılıq edilənin, həm də bu yaxşılığa şahid olananın fiziki sağlamlığında dəyişiklik olduğunu deyir. Bu gün elm yaxşılığın insanın həyatında əhəmiyyətli dəyişikliklər etdiyi qənaətindədir. İstər yaxşı iş gör, istər sənə yaxşılıq edilsin, istərsə də başqasına edilən yaxşılığa şahid olasan, hər üç halda beynimizdən oksitosin hormonu ifraz olunur. Bu hormon qorxu, narahatlıq və stressi azaldır, eyni zamanda sakitlik və təhlükəsizlik duyğusunu artırır. Sevgi hormonu kimi tanınan oksitosinin, qan təzyiqini aşağı saldığı, ümumi ürək sağlamlığının yaxşılaşmasına kömək etdiyi, özünə inamı artırdığı da məlumdur. Bu hormon həmçinin bədənimizdə nikbinlik və qarşılıqlı münasibətlərdə empatiya və bağlılıq hissini gücləndirir.

Həmçinin, yaxşı işlər görəndə beynimizdə, adətən idmandan sonra da ifraz olunan endorfin hormonu ifraz olunur və bu hormon insan bədənindəki ağrıları azaltmaq funksiyasını yerinə yetirir. Üstəlik yaxşılıq etmək orqanizmimizin ən təhlükəli reaksiyalarından biri olan stressi azaldır və dolayısı ilə stresslə bağlı yaranan xəstəliklərdən qoruyur.

Yaxşılıq edən insanın orqanizmində dərhal serotonin ifraz olunmağa başlayır. Yaxşılıq etdiyimiz zaman bədənimiz sakitləşdirici effekti verən, xoşbəxtlik hormonu tanınan serotonin istehsal etməyə başlayır. Başqa sözlə desək, yaxşılıq etmək təkcə xoşbəxtliyi artırmır, həm də insanları depressiv vəziyyətdən çıxarır. Araşdırmalar da göstərir ki, yaxşılığa şahidi olmaq yaxşılıq etməyə sövq edir və bu hissi epidemiya kimi yoluxucu edir.

Aparılan bütün araşdırmalar, edilən bütün müşahidələr xeyirxahlığın beyində müşahidə edilə bilən bir qabiliyyət, anadangəlmə bir xüsusiyyət olduğunu aşkarlayıb. Yəni, insan anadangəlmə ya xeyirxah olur, ya da bədxah. Bəşəriyyətin qurtuluşu xeyirxahların bədxahlar üzərindəki mütləq qələbəsi ilə mümkündür. Yaxşılıq edə bilmək bacarığını itirən insanlar artıq insan deyil, sadəcə nəfəs alıb-verən canlıdır. Hər gün birini itirdiyimiz xüsusiyyətlər sırasında yaxşılığı da görmək insanı kədərləndirir.

***Lalə Mehralı***



# "Prezident çıxışı ilə dünyaya yeni mesajlar verib"



"Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Davosda Çinin telekanalına verdiyi müsahibə, əlbəttə ki, dünyada çok büyük əks-səda yaradıb. Bu təsadüf deyil. Çünki Davosda dünyanın aparıcı dövlətlərinin bir neçə rəhbəri ilə, ictimai-siyasi xadimlərlə, böyük şirkətlərin başçıları ilə görüşlər keçirilib". Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Rzayev deyib. O bildirib ki, cənab Prezident bu görüşldə ölkəmizin milli maraqları mövqeyindən çıxış edərək son illərdə əldə olunmuş nailiyyətlərdən və gələcək perspektivlərdən geniş söhbət açmışdır: "Bu dəfə də jurnalist Azərbaycanın hansı uğurlara imza atması barədə Prezidentə suallarını ünvanlamışdır. Ölkəmizin rəhbəri son illərin uğurlarını dilə gətirərkən ilk növbədə düşmən üzərində tarixi qələbəmizi qeyd etmiş və bildirmişdir ki, son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyünün və suverenliyinin tam bərpası oldu. Azerbaycan Prezidenti bu qələbənin əldə olunmasına qədər Azərbaycanın keçdiyi tarixi yola ekskursiya etmiş və göstərmişdir ki, otuz il torpaqlarımız düşmən tapdağı altında olmuş, BMT Təhlükəsizlik Şurasının, beynəlxalq təşkilatların qətnamələrinin qərarlarının olmasına baxmayaraq düşmən Azərbaycan torpaqlarından əl çəkməmiş və öz təcavüzkarlıq əməllərini uzun illər davam etdirmişdir.

Sözsüz, qələbənin ən mühüm nailiyyət adlandırılması və ərazi bütövlünün, suverenliyimizin tam təmin olunması bir reallıqdır, qürur hissi doğurur. Ölkəmizin rəhbəri digər sualları da ətraflı cavablandırmışdır. Ölkənin iqtisadi inkişafı haqqında müxbirlərin suallarına mükəmməl cavablar vermişdir. O bildirmişdir ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf edən bir ölkədir. Bu gün bu inkişafı daha da genişləndirmək üçün dünya ölkələri ilə əlaqələrin qurulması, genişləndirilməsi böyük önəm daşıyır. Azərbaycanın Cənubi Qafqazda etibarlı mövqe tutmasını Prezident müxbirin nəzərinə çatdırmışdır. Qeyd olmuşdur ki, Azərbaycan öz milli maraqlarını müdafiə edən və dünya ölkələri ilə yaxşı əlaqələr quran bir ölkə kimi bu gün numunə göstərilir. Bu, bir reallıqdır. Cənab Prezident fəaliyyət göstərdiyi bütün illərdə dünya ölkələri ilə əməkdaşlıq qurur, sülhün, əmin-amanlığın, demokratiyanın genişləndirilməsinə böyük dəstək verir və bu yolda səylərini əsirgəmir. Azərbaycan cəmiyyətində sabitliyin, birliyin olması, öz maraqlarımızın müdafiə edilməsi, əlbəttə ki, fəaliyyətlərimizin əsasıdır. Bu əsası da ölkəmizin rəhbəri öz siyasəti, iradəsi, gücü ilə qoymuşdur".

"Azərbaycan Prezidenti COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsini mühüm bir hadisə adlandırmış və qeyd etmişdir ki, 200 ölkəni bir araya gətirən iqlim konfransının yüksək səviyyədə keçirilməsi Azərbaycanın iqtisadi qüdrətindən, xalqın vətənpərvərliyindən, həm də ölkədə təşkilatçılıq işlərinin yüksək səviyyədə təşkilindən irəli gəlir. Bu gün Azərbaycan dünyanın bir çox ölkələri ilə ticarət əlaqələri qurur və bu əlaqələrin genişləndirilməsi diqqət mərkəzindədir. Biz uzun illərdir ki, Ümumdünya Ticarət Təşkilatına daxil olmaq fikrindəyik. Ancaq bu təşkilatın üzvü deyilik. Danışıqların aktiv mərhələsindəyik. Digər təşkilat olan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaşıq. Bu iki böyük təşkilatla əlaqələrin qurulmasını ölkəmizin rəhbəri müsbət hal kimi dəyərləndirir. Bildirib ki, bu təşkilatlara üzv olmasaq da, bu təşkilatların üzvləri ilə sıx əməkdaşlıq edirik.

Cənab Prezident bu çıxışı ilə dünyaya yeni mesajlar vermişdir. Bu mesajlar ilk növbədə Azərbaycanın milli maraqlarının qorunması və Azərbaycana mane olan qüvvələrin öz əməllərindən əl çəkməsidir. Ölkəmizin rəhbəri dəfələrlə bildirib ki, bizim heç bir ölkənin torpaqlarında gözümüz yoxdur. Biz sağlam qonşuluq münasibətləri zəminində yaşamaq, işləmək, fəaliyyət göstərmək əzmindəyik. Bu istiqamətdə də öz işlərimizi həyata keçiririk. Bu televiziya müsahibəsində də ölkəmizin rəhbəri dünyada baş verən hadisələrə öz obyektiv münasibətini ortaya qoydu. Əlbəttə ki, bu mövqe dünyada sülhün, əmin-amanlığın təmin olunması, münaqişələrin aradan qaldırılması, insanlığa, beynəlxalq normalara hörmət edilməsidir. Verilən müsahibə və səsləndirilən fikirlər bilavasitə Azərbaycan xalqının mövqeyidir. Bir suveren dövlət kimi biz öz hüquqlarımızı qorumalı və hüquqlarımıza qarşı çıxan hər kəsə qarşı amansız mövqedə olmalıyıq. Çünki Azərbaycan 30 il öz hüquqlarından məhrum olmuş bir milyon xalqın Vətənidir. İnsanlarımızın öz hüquqlarını qoruması, onların haqqıdır. Ölkə Prezidenti də bu mövqedən çıxış edir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Şər meydanı"ndakı Zatulin




***Azərbaycanla Rusiya arasında münasibətlər əvvəlki kimi deyil, bəzi səbəblərdən əsən soyuq küləklər isti cərəyanları regiondan uzaqlaşdırmaqdadır. Bunun nə qədər davam edəcəyi hələlik bəlli deyil. Münasibətlərin normallaşma şərtlərini tərəflər bilir, amma Moskva hələlik gözlənilən addımı atmağa tələsmir. Əvəzində bəzi dairələr fürsətdən istifadə edərək iki ölkə arasında münasibətlərin dalana dirənməsi üçün meydana atılıblar. Hələ social şəbəkələrdə fırtına, tozanaq qoparanları demirik. Sanki Azərbaycanla Rusiya arasında müharibə hazırlığı gedirmiş kimi psixoloji testlər dövrəyə qoşulub...***

"Azərbaycan üçün Qərbdəki və Türkiyədəki dostlarına Rusiya ilə münasibətlərdə nə qədər əyilməz olduğunu göstərmək vacibdir", bunu ənənəvi olaraq Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin deyib. Duma üzvünün məsələyə haradan və necə münasibət bildirməsinə diqqət edin: "Azərbaycan hakimiyyəti əvvəllər "Rossotrudniçestvo" və Amerikanın USAİD agentliyinin ölkədəki işlərini dayandırdığını bəyan etmişdi, çünki onlar "respublikanın daxili işlərinə kənar müdaxiləyə dözmək niyyətində deyillər".

Zatulin təyyarə qəzasının Rusiya ərazisində baş verdiyini, həm də hava təhlükəsizliyi səbəbindən səhvən vurulduğunu, Putinin üzr istədiyini desə də, qəzada günahkar olanların cəzalandırılmasından, kompensasiya ödənişindən danışmaq istəmir. Əvəzində: "Amma indi Azərbaycanın Qərbdəki dostlarına, Türkiyəyə nə qədər əyilməz olduğunu göstərmək vacibdir. Düşünmürəm ki, bu, ağlabatan siyasətdir, Azərbaycan Rusiyadan qaça bilməz. Sabah onlar hələ də bəzi ehtiyacları üçün bizə gələcəklər" deyib.







Onun sözlərinə görə, Moskva cavab addımları atmağa hazırdır və nəticə çıxarmalıdır ki, Azərbaycan müttəfiq sayıla bilməz: "Biz başa düşməliyik ki, Azərbaycan bizim müttəfiqimiz deyil. Moskvada Azərbaycanın analoji strukturları var, bizim cavab addımları atmağımız düzgün olardı. Ölkə rəhbərliyi bizimlə münasibətlərə yalnız öz mənfəətləri üçün baxır. Onlar heç vaxt bizim tam hüquqlu müttəfiqimiz olmayıblar, Türkiyənin regionda müttəfiqi olublar və olaraq da qalırlar. Bu o deməkdir ki, Azərbaycan bizə deyil, Türkiyəyə yönəlib, bizimlə müttəfiqlik isə fürsətçi xarakter daşıyır. Rusiyaya Qarabağdakı müharibəyə, təxribatlara, cinayətlərə, vurulan vertolyota göz yummaq lazım olanda ortaqlıq münasibətləri var idi. Boru kəmərlərinin marşrutlarını çəkmək lazım olanda, o zaman bizi diqqət və qayğı ilə əhatə edirlər. Azərbaycan və Ermənistan arasında münaqişə olduğu kimi başa çatanda Azərbaycan rəhbərliyi Rusiyaya xüsusi münasibətini göstərmək üçün istənilən fürsətdən istifadə etmək qərarına gəlib".



Bu, o Zatulinin sözləridir ki, ölkəsi olan Rusiyanı Ermənistan "bir keçi qiymətinə" Qərbə satıb və satmaqda da davam edir. MDB, AİÎ və KTMT kimi təşkilatlardan çıxdığını nümayişkaranə şəkildə bütün dünyaya bəyan edib. Rusiyanın Cənubi Qafqazdakı mövcudluğuna qarşı hər keçən gün daha kəskin addımlar atır. Rusiya sərhədçilərini əvvəlcə İrəvandakı "Zvartnoç" aeroportundan, sonra isə İran-Ermənistan sərhədindən qovan ermənilər sırada Türkiyə-Ermənistan sərhədinin olduğunu xatırladırlar. Hətta Rusiyaya aid 102-ci ordunun Gümrü şəhərindən çıxarmaq üçün ermənilərin etdikləri cəhdləri də unutmaq lazım deyil.

Ermənistan rəhbərliyi Qərb dairələrinin diqtəsi, göstərişi ilə Rusiyanın ölkə ərazisindən necə qovacağının yollarını aradığı bir vaxtda müttəfiq Azərbaycanla münasibətləri gərginləşdirmək, görəsən Moskvanın nəyinə lazımdır? Bəlkə, Rusiya hakimiyyətində çatlar yaranıb, idarəetmədə problemlər var, yaxud prezident Putin hərbçilərinə nəzarəti itirib. Belə olmasaydı, kim prezidentin iradəsindən kənar bu cinayətə imza atmağı gözə ala bilərdi? Tutaq ki, qəzada Kremlin günahı yoxdur, yaxud hərbçilər təyyarəmizi səhvən vurublar. Bəs, adi etirafı niyə bu qədər gecikdirirlər? Cinayətkarı müdafiə etməklə, onu gizlətməklə, hadisədə rolunu müxtəlif bəhanələrlə danmaqla Azərbaycan-Rusiya münasibətlərinə nə qədər zərər vurduqlarının fərqindədirlərmi? Deputatları, tanınmış adamları anti-Azərbaycan təbliğatına qoşmaq nə deməkdir? Onsuz da Rusiyanın dünyada çox az dostu qalıb, Azərbaycanı da dostlar siyahısından çıxarmaq şimal qonşumuza nə qazandırır? Suallar çox, cavab verəsi ünvan isə rəsmi olaraq susur, əvəzində Azərbaycanla düşmənçiliyi təbliğ edən, ermənipərəst mövqeli gədalar meydan sulayır.

Zatulini Ermənistanda "persona-non-qrata" elan ediblər. Yəni, Zatulin, cəhənnəm ol, sənin ayağın ermənilərin yaşadığı bu ərazilərə dəyə bilməz. Duma üzvü isə içdiyi "erməni yalı"nın təsirindən uzaqlaşa bilmir, yaxud ona hürmək üçün göndərilən pul pəncərəsi hələ də qapanmayıb. Qatı ermənipərəst rus deputat Zatulin anti-Azərbaycan mövqeyi nümayiş etdirməklə həm də terrora dəstək sərgiləyir.

Bu ilk hadisə deyil ki, Dövlət Dumasının MDB işləri üzrə komitəsinin sədr müavini qanunsuzluğa qanuni don geydirməyə çalışır. Bu şəxs vaxtilə qondarma rejimin yaradılmasının ildönümü ilə bağlı Qarabağ separatçılarına təbrik ünvanlamışdı və məktubunda Bakıda məhkəməsini gözləyən Qarabağ separatçılarının təəssübkeşi rolunda da çıxış etmişdi. Bu gün də Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan və digər terrorçu-separatçılara dəstək nümayiş etdirir. Ölkəsində rüşvətxor və simasız biri kimi tanınan Zatulinin bu sərsəmləməsi sözsüz ki, gündəmdə qalmağa yönəlib. Xatırladaq ki, Zatulin əvvəllər də separatçılara dəstək nümayiş etdirib. O, hətta 2010-cu il mayın 23-də Qarabağ separatçıları arasında "seçkilər" adlı sirk tamaşasında iştirak edib. Azərbaycan Xarici İşlər Nazirliyi də buna görə Zatulini "persona non-qrata" siyahısına daxil edib.

"Rusiyanın varlığı uğrunda mübarizə apardığı, birləşmiş Qərblə üz-üzə gəldiyi bir vaxtda bizim müttəfiqimiz Ermənistan əməkdaşlığımızla bağlı hər şeyə xəyanət edir. Mən bununla razılaşa bilmirəm". Bu sözləri də Konstantin Zatulin Beynəlxalq Rusiya-Ermənistan "Lazarev klubu"nun iclasında çıxışı zamanı deyib. Onun sözlərinə görə, məsuliyyəti Rusiyanın üzərinə yükləmək cəhdi Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiya ilə bütün əlaqələri kəsmək zərurəti ilə bağlı səsləndirdiyi ideyanın davamıdır. Onun sözlərinə görə, erməni xalqının öz müqəddəratını təyin etmək iradəsinə qarşı zorakılıq edilib.

Ermənilərin maraqlarının müdafiəçisi olan Zatulin kimi şəxslər Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərini pozmağa çalışırlar. Onun Azərbaycan əleyhinə növbəti aqressiv, absurd, qanunazidd və cəfəng fikirləri ölkə ictimaiyyəti tərəfindən ikrah hissi və ciddi etirazla qarşılanır. Ümumiyyətlə, K.Zatulin həmişə milli-etnik zəmində qarşıdurmanı qızışdırmaqda ittiham olunub. O gah müxtəlif ölkələr tərəfindən persona non-qrata elan edilib, gah da tanınmayan bir separatçı rejimin "seçki"lərini legitimləşdirmək üçün müşahidəçi statusunda orada iştirak edib. Ermənipərəst Zatulinin bu cür təxribatçı cəhdlərinin arxasında da Rusiya-Azərbaycan münasibətlərinin pozulmasına nail olmaq məqsədi durur. Amma şübhəsiz ki, bu cür cəhdlər əbəsdir və heç bir nəticə verməyəcək.

**V.VƏLİYEV**

# İnfeksion xəstəliklərin artmasının səbəbi BƏLLİ OLDU

## Ailə həkimi Fidan Həsənlinin SİA-ya müsahibəsini təqdim edirik:



***- Son günlər insanlar müxtəlif infeksion xəstəliklərə yoluxur və səbəbini bilmirlər. Bu, bir növ maarifləndirmə işinin zəif olmasından irəli gəlir, yoxsa insanların laqeydliyindən?***

- Son zamanlar nəinki infeksion xəstəliklərin sayı durmadan artır, xroniki xəstəliklərin də sayı artır. Ümumiyyətlə, xəstəliklərin erkən diaqnostikası daha çox önəmlidir. İnsanlar öz sağlamlıqlarına qarşı laqeyd yanaşırlar deməzdim. Lakin ilkin simptomlar yarandıqda ikinci plana atırlar. Adi müşahidə olunan simptomlardan görünür ki, nə qədər tez həkimə müraciət etsələr, nə qədər tez öz sağlamlıqlarının qeydinə qalsalar, bir o qədər həyat keyfiyyətinin yaxşılaşdırılması olar. Biz - həkimlər hər zaman deyirik ki, ilk əvvəl xəstəliyin profilaktikası önəmlidir, bir də erkən diaqnostika. Əgər insanlar özlərində gündəlik həyat keyfiyyətinə təsir edən hər hansı bir hal müşahidə edirlərsə, mütləq bu məsələnin üzərinə düşməlidirlər. Biz ətraf mühitə, ətrafdakı insanlara qarşı həssaslıqla yanaşırıqsa, öz sağlamlığımızın da qeydinə qalmalıyıq.

***- Niyə bu xəstəliyə yoluxan zaman xəstəliyin gedişi ağır olur və uzun çəkir? Bu nə ilə bağlıdır?***

- Ümumiyyətlə, hər bir pasiyentə individual yanaşılır. Biz deyə bilmərik ki, bu insan virusu daha ağır keçirəcək. Müşahidələr onu göstərir ki, yanaşı gedən xroniki xəstəliyi olan insanlar daha ağır keçirirlər. İlkin olaraq insanın immun sistemindən asılıdır. Çünki xəstəliklə mübarizə aparan bizim immun sistemimiz olur. Xəstəliyə qarşı müvafiq antitellər ifraz olunur. İlkin olaraq bədən müqavimətindən asılıdır. Düşünürəm ki, həm yaş faktoru var, həm cinsi faktor var. Bir kateqoriya insan var ki, onlarda daha ağır keçir. Koronavirus dövründə də gördük ki, yaşlı insanlar daha ağır keçirirdi. Əhaliyə müraciət etmək istərdim ki, uşaqlar, ahıl insanlar, hamilələr hər hansı virusa yoluxduqda özbaşına müalicə aparmasınlar. Mütləq ailə həkimlərinə müraciət etsinlər və onlardan məsləhət alsınlar.

***- Bəzən dədə-baba üsullarından istifadə olunur. Hətta "Türkə çarə" üsulundan da istifadə olunur. Dərman olmadan otlarla edilən üsul doğrudurmu?***

- Həkimlər olaraq daha çox məsləhət görürük ki, spesifik müalicə aparılsın. Diaqnoz qoyulubsa, spesifik müalicə aparılmalıdır. Məsələn, bakterial infeksiyadırsa, mütləq antibiotiklərdən istifadə olunmalıdır. Əgər "Türkə çarə"lərdən istifadə olunursa, bu, dəstəkləyici üsuldur. Lakin ən effektiv müalicə sayılmır.



***- Dəyişkən havalarda uşaqları mövsümü infeksiyalardan necə qoruyaq?***

- Son günlərdə müşahidə edirik ki, havaların kəskin dəyişməsi nəticəsində valideynləri narahat edən mövzu uşaqlarda yaranan infeksiyalardır. Çünki uşaqlar həssas olurlar. 5 yaşına qədər uşaqlar daha həssas olurlar. Çünki uşaqların immun sistemi yeni formalaşmaqdadır. Biz ona görə bildiririk ki, vaksinasiya çox önəmlidir. Yeni doğulmuşlarda doğuşdan sonra vurulan vaksinlər var. Hansı ki, onlar cədvələ uyğun vurulur. Vakansiyanın rolu var. Hansısa infeksiyanın qarşısını almaq üçün vaksinasiya önəmlidir. Biz ona görə valideynlərə bildiririk ki, uşaqların sağlamlığını qorumaq üçün ilkin olaraq vaksinasiya, daha sonra profilaktik tədbirlər görülməlidir. Burada əsas məsələ gigiyenik qaydalara əməl olunmasıdır. Bu, uşaqlarda vərdiş halına gətirilməlidir. Çünki uşaq 3-7 yaş arasında dərk edir ki, bu metodlar olmalıdır. Lazım gəldikdə ictimai yerlərdə maskalardan istifadə olunmalıdır. Balanslaşdırılmış qida mütləqdir. Nə qədər biz balanslaşdırılmış qida istifadə etsək, immun sistemimiz o qədər güclü olar. Biz deyirik ki, zərərli yağlardan daha az istifadə olunsun ki, bu da təsir göstərir.

***- İmmunitetin yüksəldilməsi üçün ancaq dediyiniz vasitələrdən istifadə olunmalıdır, yoxsa əlavə qidalar da var? Bu dövrdə uşaqların immunitetinin yüksəldilməsi üçün hansı tövsiyələriniz var?***

- Gündəlik həyatda rutinimiz o qədər çox olur ki, qidaya fikir vermirik. Çox aktual mövzudur. Nəinki infeksiyaların qarşısının alınması üçün profilaktik tədbirlər, hətta bəzi xəstəliklərin ağırlaşmasına təsir də göstərə bilər. Məsələn, mədə-bağırsaq sisteminin pozulmasına əsas səbəb fast-food qidalardır. İnsanın simptomsuz xroniki xəstəliyi ola bilər ki, bundan heç xəbəri də olmaz. Fast-food qidaları onun inkişafına vasitəçi də ola bilər. İlkin olaraq valideynlər uşaqlarda nəyə fikir verməlidirlər? Uşaqlarda daha çox yuxarı və aşağı tənəffüs yollarının infeksiyaları olur. Çünki bu infeksiyalar ictimai yerlərdə, məsələn məktəb, universitetdə daha çox yayılır. Bəzən də görürük ki, valideynlər danışarkən bildirirlər ki, xəstəlik yayılıb uşağını sabahdan məktəbə qoymayacaq. Mütləq səhər yeməyi yeyilməlidir. Amma balanslaşdırılmış olmalıdır. Yəni zülal, karbohidrat olmalıdır. Yuxu rejimi çox önəmlidir. Hər bir insan normal 8 saat yuxu yatmalıdır. Hər bir saatda orqanizmdə fizioloji olaraq bəzi proseslər baş verir. Maddələr mübadiləsinin gücləndirilməsi məqsədilə hormonal disbalansın yaranmaması üçün vaxtında yatıb-durmaq vacibdir. Uşaqlarda ən az 8 saat, böyüklərdə isə 6-7 saat yuxu rejimi olmalıdır. Belə olanda həyat keyfiyyətinə müsbət təsir göstərə bilsin.

***- İnfeksionist daha çox hansı xəstəlikləri müalicə edir?***

- İnfeksionist yoluxucu xəstəliklər üzrə mütəxəssisdir. Hepatit viruslu xəstələr birbaşa terapevtə müraciət edirlər. Amma bu, doğru deyil. İlkin olaraq yoluxucu xəstəliklər üzrə mütəxəssisə müraciət edilməlidir. Cərrahi müdaxilələrdən sonra infeksionistin rolu daha böyükdür.

***- Son zamanlar böyüklər arasında da qızdırma ilə nəticələnən xəstəlik mövcuddur. Hətta 1-2 həftə çəkir. Bu xəstəliyin adı nədir, necə xilas olmaq olar?***

- Buna el arasında soyuqdəymə deyilir. Biz isə həkim prizmasından baxaraq xəstəliyin infeksional, yaxud da, bakterial olduğunu təyin edirik. Simptomları özündə görən insanlar dərhal əczaçıya qaçıb antibiotik qəbul etməyə başlayır. Bu, doğru deyil. Əgər burada bakterial infeksiyadan söhbət gedirsə, o zaman antibiotik terapiyasına başlanılır. Viral infeksiyada isə baş, boğaz, oynaq ağrıları, halsızlıq, qızdırma kimi simptomlar olur.

***Söylü Ağazadə***

# "Çinlə Azərbaycanın strateji tərəfdaşlığına böyük ehtiyac var"

"Cənab Prezidentin Çin televiziyasına verdiyi müsahibədə İlham Əliyev dünya ictimaiyyətinə Azərbaycanın mövqeyini təqdim etdi və bildirdi ki, Azərbaycan müstəqil özünə güvənən, özünün iqtisadi müstəqilliyini təmin etmək iqtidarında olan bir ölkədir, bu çox önəmlidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Azay Quliyev deyib. Azay Quliyev sözlərinə belə davam edib: "Digər bir tərəfdən ikinci mesaj ondan ibarətdir ki, Azərbaycan bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı maraqlar əsasında əməkdaşlıq etməyi üstün tutur və bu baxımdan həm Çinlə strateji tərəfdaşlıq haqqında müqavilə imzalayıb, həm Avropa İttifaqının 10 üzv ölkəsi ilə, həm qardaş Türkiyə ilə, həm Rusiya ilə bu cür əlaqələr qurubdur. Bu onu göstərir ki, hansı ölkənin hansı düşərgəyə aid olmasından asılı olmayaraq əgər Azərbaycanla ortaq maraqları varsa və Azərbaycanın milli maraqları nəzərə alınırsa və bütün münasibətlər qarşılıqlı hörmət əsasında qurulursa, Azərbaycan bu əməkdaşlığa hazırdır və götürdüyü öhdəlikləri yerinə yetirməyi bacarır.





Üçüncü mühüm tezis ondan ibarətdir ki, bugün Çin dünyada iqtisadi baxımdan kifayət qədər inkişaf edibdir, Amerika ilə rəqabət aparacaq gücdədir. Ona görə də Azərbaycanın Çinlə əməkdaşlığı həm də orta dəhlizin inkişafı baxımından diqqəti cəlb edir və orta dəhliz Azərbaycanın yatırdığı böyük bir investisiya, qurduğu infrastruktur bugün bir kəmər, bir yol lahiyəsini uğurla inkişafına köməklik edir. Nəzərə alsaq ki, bugün bütövlükdə Rusiya-Ukrayna müharibəsindən sonra şimal dəhlizinin ötürücülük qabiliyyəti azalıbdır və buna görə də əsas orta dəhlizə güc düşür. Bu baxımdan da Azərbaycan bugün həm Cənubi Qafqaz, həm Xəzər hövzəsi, həm Orta Asiya, həm də bütövlükdə Avropa və dünya üçün açar ölkədir.

Növbəti tezis Abş-la bağlı idi. ABŞ-ın yeni prezidenti Trampla bağlıdır. Bizim Trampla münasibətlərimiz xüsusən 1-ci prezidentlik dövründə çox rəvan olubdur, əməkdaşlığımız inkişaf edibdir və cənab Prezident bunu dəfələrlə bildirdi ki, Bayden dönəmində olan 4 illik münasibətlər itirilmiş illərdir. Bayden rejiminin bizə olan münasibəti ədalətsiz və qeyri-adidir və ümid edirik ki, Trampla Azərbaycanın münasibətləri strateji maraqlar əsasında qurulacaq və yenidən bərpa olunacaq. Bu vacib bir mesajdır. Çünki əslinə baxanda bugün Amerika ilə Azərbaycan arasında çox böyük bir əməkdaşlıq üçün potensial var. Azərbaycan bu potensialı tam şəkildə istifadə etməyə hazırdır.

Burada eyni zamanda Azərbaycan COP-29 rəhbərliyi ilə bağlı məsələyə toxunuldu, yaşıl enerji ilə bağlı gördüyü işlər, Çinlə günəş enerjisinin hesabı ilə bağlı görülən əməkdaşlıq və s. Ən vacibi isə cənab Prezident xalqına, dövlətinə və bütün insanlara olan münasibətini bir daha açıqladı və dedi ki, "Mən siyasi dövlət başçısı olaraq həqiqətin acılığından, pozitivliyindən və şirinliyindən, neqativliyindən asılı olmayaraq həmişə xalqıma həqiqəti demişəm və ona görə də xalqla hakimiyyət arasında çox böyük bir bağ var. Torpaqlarımızı işğaldan azad edərək müstəqilliyimizi, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etmişik, gücləndirmişik". Buna görə də bugün Azərbaycan xalqı həqiqətən də cənab Prezidentə çox böyük sevgi ilə, etimadla, inamla baxır və bu da məhz dövlətimizin, dövlət başçımızın apardığı siyasətin xalq tərəfindən dəstəklənməsidir və ona olan etimadın yüksəlməsidir.

Yekun olaraq onu deyim ki, bugün doğrudan da Çinlə Azərbaycanın strateji tərəfdaşlığına böyük ehtiyac var və hər iki ölkə baxmayaraq ki iqtisadi baxımdan fərqli çapdadılar. Amma bütövlükdə maraqlar üst-üstə düşür. Əminəm ki, Azərbaycanın çox vektorlu siyasəti Azərbaycanın milli maraqlarına xidmət edir".

***Ayşən Vəli***

ŞƏRHLƏR

# "Gürcü arzusu" iqtidarda qalacaq, müxalifət marginallaşacaq"




***Gürcüstan parlamenti 3 siyasi birlikdən olan 49 müxalifət deputatının səlahiyyətlərinə vaxtından əvvəl xitam verib. Müvafiq qərarın qəbul edilməsinə onların ötən ilin noyabrında parlamentə təqdim etdikləri səlahiyyətlərinə xitam verilməsi tələbi əsas olub. Oktyabrın 26-da keçirilən seçkilərdə onlar baryeri keçmələrinə baxmayaraq səsvermənin nəticələrini qeyri-legitim adlandırıblar və parlamentin fəaliyyətində iştirak etmirlər.***



Gürcüstan Parlamentinin Prosedur Məsələləri və Qaydalar Komitəsinin sədri David Matikaşvili deyib: "Komitə onların mandatlarına vaxtından əvvəl xitam verilməsi ilə bağlı yazılı bəyanatını müzakirə edib və dəstəkləyib".




Müxalifət siyasətçiləri üçün mandatlarının itirilməsi o deməkdir ki, onlar artıq deputat toxunulmazlığı ilə qorunmayacaqlar. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili müxalifətdən olan deputatların səlahiyyətlərinə xitam verilməsi ilə bağlı səsvermədən sonra belə bir bəyanatla çıxış edib: "Demokratiyanı və əhalini şantaj etməyə çalışan hər kəsə həmişə ədalətli, konstitusiyaya uyğun, hüquqi cavab veriləcək. Bəziləri seçkinin nəticələrini ləğv etmək, xalqın sözünü rədd etmək fikrində idi. Eyni üsulları, o cümlədən mandatlardan imtinanı görürük. Biz gürcü xalqı adından Konstitusiyaya və demokratiyaya etinasız yanaşmağa imkan verməyəcəyik ki, radikal müxalifət öz daxili və ya xarici havadarlarının köməyi ilə xalqın iradəsini tapdalamağa çalışsın".

Bəs bundan sonra nə olacaq? Bu, "Gürcü arzusu"nun narazı rəqibləri üzərində müəyyən mərhələli qələbəsi sayıla bilərmi? Bu, səriştəsiz və uğursuz siyasi qərarlarına görə müxalifətin xalqın gözündə nüfuzuna növbəti zərbə demək deyilmi?

Bu barədə tanınmış xarici ekspertlər caliber.az-a fikirlərini bildiriblər. Şərhləri oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq, Cənubi Qafqaz Ölkələri üzrə Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov hesab edir ki, müxalifətin parlamentdən çıxarılmasının milli maraqlara riayət etmək kursunu açıq şəkildə tutmuş "Gürcü Arzusu"nun (GA) qələbəsi olduğuna şübhə yoxdur.

"Qeyd etmək lazımdır ki, Gürcüstanda müxalifət indi zəifləyib. Üstəlik, biz bilirik ki, Amerikada USAID agentliyinin yardımı hələlik müvəqqəti olaraq dayandırılıb. Müxalifəti dəstəkləyən USAID idi-o cümlədən əvvəlki parlament seçkiləri zamanı, Ermənistandakı etirazçılara dəstək üçün pul göndərən də.

Və buna uyğun olaraq indi müxalifətin ölkə daxilində sabitliyi pozmaq üçün çoxlu rıçaqları yoxdur. Müəyyən qanunvericilik qərarları veriləcək ki, onlar açıq-aşkar parlamenti tərk edən müxalifət nümayəndələrini sevindirməyəcək, amma daha əvvəllər olduğu kimi xalqı ayağa qaldıra bilməyəcəklər. Və əgər "Gürcü Arzusu" partiyası dərhal iqtisadiyyatda dəyişiklik edib əhaliyə fayda verəcək qərarlar qəbul etməyə başlasa, o zaman müxalifətin bütün şüarları puça çıxacaq və müvafiq olaraq təsir imkanlarını daha da zəiflədəcək. Müxalifətin nüfuzu, prinsipcə, artıq çox aşağı düşüb.

Onun verdiyi qərarlar, demək olar ki, işə yaramadı. Müxalifətə dəstək verən gürcü əhalisinin o hissəsi yaxın gələcəkdə məyus olacaq, çünki onun bütün səyləri və faydasız qarşıdurmaya gedən bütün xərcləri yenə də lazımsız oldu.

Xüsusən də nəzərə alsaq ki, müxalifət partiyalarının maliyyəsi azalıb. "Ola bilsin, Avropadan bir qədər pul gələcək"- deyə mərkəzin direktoru hesab edir.

Ekspert hesab edir ki, hər bir halda GA rahatlamamalıdır: "Hazırda Gürcüstanda siyasi vəziyyət donmuş kimi görünür. Yenə də bütün postsovet məkanı ölkələri, xüsusən də Gürcüstan ABŞ administrasiyasından addımlar gözləyir. Və təbii ki, onlar Trampla Putin arasında danışıqları gözləyirlər. Bundan sonra Gürcüstanın hara getməli olduğu bəlli olacaq.



Çünki Gürcüstan rəhbərliyi son vaxtlar Moskva ilə əlaqələrin bərpasına müsbət münasibət nümayiş etdirir. Moskva da burada müəyyən uzaqgörənlik nümayiş etdirsə, o zaman Qərbin bu ölkədə təsiri daha da azalacaq. İstənilən halda, mən hazırda Gürcüstanda xüsusi təlatüm görmürəm. Hakim partiyanı qələbə münasibətilə bir çox Avropa liderləri təbrik ediblər. Zurabişvili heç yerə getmədi. Prinsipcə, xüsusi dəstək yoxdur.



Təbii ki, hansısa nəzarət və ola bilsin ki, sabitliyin pozulması üçün müxalifət yenə də üçüncü qüvvələr tərəfindən dəstəklənəcək, amma əvvəlki miqyasda deyil. Yəni, Maydan texnologiyaları ölməyə başlayır. Bunu Gürcüstanın timsalında da gördük. Ölkənin fəlakətinə səbəb olan Ukrayna münaqişəsi, prinsipcə, bu ölkədə planlaşdırılan Maydan səbəbindən baş vermişdir, bu, gürcülər üçün nümunədir ki, onların ölkələrində oxşar heç bir şey olmasın. Və müvafiq olaraq, Ukraynadakı vəziyyət digər ölkələrə və əvvəllər Maydan texnologiyasını işləyib hazırlayanlara göstərdi ki, bu sxemlər artıq işləmir. Müvafiq olaraq, Gürcüstan müxalifətinin bu istiqamətdə şansı yoxdur. Ola bilsin ki, başqa bir şey tapsınlar, amma hələlik narahat olmaq üçün heç bir səbəb görmürəm. "Gürcüstanda vəziyyət sabitdir".

Politoloq, Qafqaz İslam Araşdırmaları Mərkəzinin direktoru, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti Şota Apxaidze hesab edir ki, çətin siyasi vəziyyət yaranıb.

"Gürcüstanda siyasi böhran artıq elə bir səviyyədədir ki, prinsipcə onu artıq sistemli adlandırmaq olar. Cəmiyyətin qütbləşməsi hakimiyyətə qayıtmaq istəyən bu dağıdıcı müxalifət liderlərinin (Saakaşvili rejiminin tullantıları) və onların himayədarları olan Qərbdəki ultra-liberal qlobalistlərin sayəsində baş verir ki, onlar sadəcə olaraq Gürcüstanda revanşları hər zaman maliyyələşdirib motivasiya ediblər. Artıq vəziyyət o yerə çatıb ki, müxalifət, demək olar ki, obyektiv reallığı, ümumiyyətlə, baş verənləri tamamilə itirib. Onlar gündən-günə reallıqdan uzaqlaşır və bu cür boykotlarla ilk növbədə özlərini marginallaşdırırlar", - deyə tədqiqatçı bildirir.

Onun sözlərinə görə, "Gürcü arzusu" da qətiyyətli, radikal addımlar atır və müxalifətə bir addım belə geri çəkilməyəcəyini başa salır.

"Yəni, GA geri çəkilməyəcək, əksinə hücuma keçəcək və öz mövqeyini sona qədər qoruyacaq. Prinsipcə, hətta əvvəlcə seçkinin nəticələrini tanıyan, lakin sonradan fikirlərini dəyişən və bəyanatlarına yenidən baxan Qərb strukturları da indi Gürcüstanda daxili siyasi proseslərə hər hansı formada təsir göstərməkdə acizdirlər. Üstəlik də, Trampın artıq heç nəyə qarışmayacağını deməsi fonunda.

Müxalifət özünü belə anlaşılmaz, deyə bilərik ki, bir paradiqmada tapdı. Sonra nə olacaq? Heç nə olmayacaq. Düşünürəm ki, GA hakimiyyətdə qalacaq, onu heç kim devirməyəcək. Ancaq müxalifət tədricən özünü marginallaşdırmağa davam edəcək"- deyə Apxaidze yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Orta Dəhliz və Bakı-Tbilisi-Qars dəmir yolunun inkişafı hansı yerdədir?

## *Qurum rəsmisi məsələyə aydınlıq gətirdi*

**“Azərbaycan iqtisadiyyatının diversifikasiyası, neftdən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafı istiqamətində əsas hədəflərdən biri ölkənin nəqliyyat potensialının inkişaf etdirilməsi və beynəlxalq nəqliyyat qovşağına çevrilməsidir. Ölkəmizin əlverişli coğrafi mövqeyi, Şərqdən Qərbə və Şimaldan Cənuba gedən ticarət yollarının kəsişməsində yerləşməsi bu hədəfə çatmaq baxımından müsbət amildir. Bununla yanaşı, beynəlxalq tranzit yük axınlarını təmin etmək məqsədilə ölkə daxilində nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və modernləşdirilməsi, beynəlxalq dəhlizlərin funksionallığının artırılması tələb olunur.**



Bu istiqamətdə Azərbaycan tərəfindən həyata keçirilən uzunmüddətli strateji addımlar artıq öz bəhrəsini verir. Azərbaycan üzərindən tranzit daşımaların əsasını dəmir yolları təşkil edir. 2022-ci ildən etibarən tranzit daşımaların həcmi əhəmiyyətli dərəcədə artıb. 2024-cü ilin 12 ayında ADY tərəfindən tranzit, idxal, ixrac və daxili rejimlərdə 18,5 milyon tondan çox yük daşınıb. 2023-cü illə müqayisədə 2024-cü ilin analoji dövründə daşınmış tranzit yüklərin həcmi 5,7% artaraq 7,3 milyon ton, idxal yükləri isə 10% artaraq 5,2 milyon ton olub. Əsas tranzit istiqaməti olan Şərq-Qərb marşrutu üzrə il ərzində 3,2 milyon tondan çox yük daşınıb. Tranzit rejimdə daşınmış yüklər arasında neft və neft məhsulları 2,8 milyon tonu keçib və 2023-cü ilin göstəricilərini 11% üstələyib. Əsas yüklərdən olan metal filizləri və metal sənayesi məhsullarında 8%, ağac, sellüloz, kağız məhsullarında isə 26% artım qeydə alınıb. Neft və neft məhsulları idxal rejimdə də ən böyük paya sahib olaraq 2023-cü illə müqayisədə 89%, kimya sənayesi məhsulları 12%, daş kömür və digər yanacaq məhsulları 52% artım göstərib”. Bu sözləri ADY-nin rəsmi nümayəndəsi Bəxtiyar Hacızadə SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, Azərbaycan üçün əsas strateji əhəmiyyətli tranzit dəhlizi Şərqdən Qərbə və əks istiqamətdə yüklərin daşındığı Orta Dəhliz hesab olunur: ”Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan limanlarından keçməklə formalaşan əsas marşrutun fəaliyyətinin təmin edilməsi ilə yanaşı, Azərbaycan tərəfi bu dəhlizin şaxələndirilməsi və alternativ qollarının da formalaşdırılması üzrə əsas təşəbbüskar tərəf olmuşdur. Belə ki, tranzit yüklərin Gürcüstan limanlarına paralel olaraq Türkiyə üzərindən də Avropaya və açıq dənizlərə daşınmasını təmin etmək məqsədilə Azərbaycan tərəfinin, xüsusilə də ADY-nin aktiv və birbaşa iştirakı ilə Bakı-Tbilisi-Qars (BTQ) dəmiryol xətti inşa edilib və 2017-ci ildə açılışı olub.

Orta Dəhlizin əsas komponentlərindən biri olan BTQ xəttinin imkanlarının genişləndirilməsi məqsədilə aparılan modernləşdirilmə işlərinin sürətləndirilməsi və yekunlaşdırılması üçün xətt vasitəsilə yükdaşımalar 2023-cü ilin may ayında müvəqqəti olaraq dayandırılmışdı. İşlərin sürətləndirilməsi sayəsində 2024-cü ildə Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsində modernləşdirmə işləri tamamlanıb və illik yükaşırma həcmi 1 milyon tondan 5 milyon tona çatdırılıb. Modernləşdirmə işləri tamamlandıqdan sonra ötən il mayın 20-dən etibarən yükdaşımalar bərpa edilib”.

Qurum rəsmisi həmçinin bildirib ki, Orta Dəhliz və modernləşdirilmiş BTQ dəmiryol xəttinin geniş imkanları sayəsində 2024-cü ilin iyun ayından Sian limanı ilə yanaşı, Çinin şərqdəki ən böyük limanlarından olan Lianyunqanqdan yüklərin test rejimində göndərilməsinə başlanılıb: ”Modernləşdirmə işlərinin tamamlanmasının ardınca ötən il həm də ADY və ”Marabda-Kartsaxi Dəmir Yolu” MMC-nin törəmə şirkətlərinin təsisçiliyi ilə ”BTKI Railways” MMC adlı birgə müəssisə yaradılıb. Yeni müəssisə BTQ üzrə əməliyyatların səmərəli idarə olunması və yeni yüklərin cəlbi istiqamətində fəaliyyət göstərərək regionda strateji nəqliyyat əlaqələrinin gücləndirilməsi və Orta Dəhlizin potensialının dəfələrlə artırılmasına töhfə verəcək. Eyni zamanda, Marabda-Kartsaxi sahəsinin bütün dəmiryol infrastrukturunun istismarı və idarə edilməsi ilə yanaşı, əldə edilən vəsaitdən Gürcüstan tərəfinə ayrılmış kredit borcunun tam olaraq geri ödənilməsini həyata keçirəcək.

Orta Dəhlizin potensialının gücləndirilməsi istiqamətində Gürcüstan və Qazaxıstan dəmir yolları ilə birgə təsis edilmiş ”Middle Corridor Multimodal Ltd.” şirkəti də həlledici rola malikdir. Bu birgə müəssisə vasitəsilə vahid pəncərə yanaşmasının, stabil tarif siyasəti və səmərəli daşınma şərtlərinin tətbiqini təmin edilir. Eyni zamanda, 2024-cü ildə Çin dəmir yollarının törəmə şirkəti olan Çin Dəmir Yolu Konteyner Daşımaları Korporasiyasının (CRCT) birgə müəssisəyə qoşulması Orta Dəhliz üzrə daha təkmilləşmiş yanaşma, daha professional daşınma texnologiyalarını tətbiq etmək imkanlarına yol açır”.

Bəxtiyar Hacızadənin sözlərinə görə, bundan başqa, Horadiz-Ağbənd layihəsinin tamamlanması, Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında yeni dəmiryol xəttinin çəkilməsi, Naxçıvan MR ərazisində dəmiryol şəbəkəsinin modernləşdirilməsi və Naxçıvan MR ilə Azərbaycanın digər hissəsi arasında dəmiryol əlaqəsinin təmin edilməsindən sonra yekun nəticədə Orta Dəhlizin daha bir qolu formalaşacaq: ”ADY tərəfindən beynəlxalq tərəfdaşlarla aparılan davamlı və aktiv danışıqlar nəticəsində Orta Dəhliz vasitəsilə tranzit daşımaların sürətinin və səmərəliliyinin artırılması məqsədilə konteyner daşımalarının həcmi və payı ildən-ilə artırılır. Ötən il Çindən Azərbaycana 358 konteyner blokqatarı (artıq onlardan 287-si qəbul edilib) göndərilib. Bu, Orta Dəhlizlə yükdaşıma həcminin artdığını və Azərbaycanın beynəlxalq nəqliyyat sistemindəki rolunun daha da gücləndiyini göstərir. 2024-cü il ərzində bu dəhlizlə Çindən daşınan yüklərin həcmi 27 min konteyneri keçib. Bu, 2023-cü ilin göstəricilərini 25 dəfədən çox üstələyir.

Orta Dəhlizin tək Şərq-Qərb marşrutu kimi yox, həm də Qərb-Şərq nəqliyyat arteriyası kimi inkişafını dəstəkləmək məqsədilə 2024-cü ilin noyabr ayında Bakıdan dəmir yolu ilə ilk ixrac yükü Çinə göndərilib. Bu, yerli sahibkarlara öz yüklərini Orta Dəhlizlə birbaşa Çinə göndərməyə şərait yaradır”.

***Xeyrənsə Piriyeva***

# “Sosial şəbəkələrlə bağlı bir çox problemləri müşahidə etməkdəyik”

## *SOSİOLOQ FİKRİ*




**“İlk olaraq qeyd edim ki, sosial şəbəkələrlə bağlı bir çox problemləri biz müşahidə etməkdəyik. Eyni zamanda sosial şəbəkələrdəki yeni tanışlıq səhifələri ilə bağlı biz paylaşımları görürük və təbii ki, bunu müsbət qarşılamırıq”. Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib.**





Onun sözlərinə görə, sosial şəbəkələrin bu gün insanlara virtual olaraq təqdim etdikləri imkanlar yaxşı olar ki, müsbət yöndən dəyərləndirilsin. ”Vətəndaşlarımız informasiya texnologiyalarının yaratdığı bu geniş imkanlardan, sosial platformalardan müsbət mövzuları müzakirə etsinlər. Nəinki hanısa tanışlıq səhifələri yaratmaq və bununla da cəmiyyətdə mənəvi-əxlaqi baxımından aşınmalara səbəb olacaq fəaliyyətdə olsunlar. Təbii ki, biz buna qarşıyıq, tənqidi yanaşırıq, başqa cür yanaşmada ola bilməz. Çünki hər bir xalqın özünün milli-mənəvi dəyərlər sistemi var. Hər bir xalq yaşam tərzini məhz sahib olduğu milli-mənəvi dəyərlər sistemi əsasında formalaşdırır. Yəni milli-mənəvi dəyərlər konteksində məsələyə baxdıqda Azərbaycanın tarixi keçmişində, bu günündə çox gözəl adət-ənənələri, dəyərləri, əxlaqa dayanan davranış formaları, sosial formaları cəmiyyətdə vardır. Yaxşı olar ki, sosial şəbəkə üzərindən bu cür məqsədli şəkildə paylaşım edənlər bu barədə düşünsünlər və bilərəkdən və ya məqsədli şəkildə və yaxud da ki, bilməyərəkdən də belə bir paylaşım etməkdən çəkinsinlər. Məsələnin digər bir tərəfi isə bu cür paylaşım edənlərin qarşısının alınmasına, dövlət öz işini görür. Yəni hansısa bir inzibati sərt tədbirlər həyata keçirməklə bu cür paylaşım edənlərə qarşı müəyyən mübarizə aparmaqla mümkündür. Amma desək ki, bu problemi köklü şəkildə həll edəcəkdir, buna da özümüzü inandırmayaq.



Problemin istədiyimiz şəkildə sonlanması, aradan qaldırılması və bu cür paylaşımların sosial şəbəkələrdən azalması üçün insanları maarifləndirmək və təbliğat aparmaq lazımdır. Başqa alternativ həll yolunu hələ ki, mən görmürəm. Düşünürəm ki, insanlarımız ayıq-sayıq olmalıdırlar, bu cür paylaşımlar milli-mənəvi dəyərlərimizə ziddir, bu gələcəkdə təsadüfi tanışlıqlara yol açır. Ümumiyyətlə gənclərin ailə qurması məsələsinə münasibəti dəyişir və bütövlükdə cəmiyyət, ailə institu, toplum olaraq və birazda irəliyə getmiş olsaq dövlət olaraq bundan zərər çəkmiş olarıq”.

***Ziya Hikmətoğlu***

# Taleni Allah yox, biz yazırıq...

***Dünyaya insan gəlir. Hər gün... Yüzlərlə, minlərlə. Hər birinin də doğulmazdan əvvəl taleyi doğulur. Artıq o, dünyaya gələndə alnında yazısını da gətirir. Və elə o andan, o saatdan başlayaraq alın yazısı ilə həyatına davam edir.***

Biz dünyaya kişimi, qadınmı gələcəyik, buna qərarı Allah verir. Biz dünyaya hansı ayın hansı günündə gələcəyik, buna da qərarı Allah verir. Bəs biz hansı bürcə, hansı ilə aid olacağıq, bəli buna da qərarı Allah verir. Allahın qərarı ilə, yəni bizim hansı aya, hansı günə, hansı bürcə aid olmağımızla da xarakterimiz formalaşır, taleyimiz həmin bürcə, ilə, aya, günə uyğunlaşdırılmış şəkildə yazılır. Gəlin görək bu, həmişə belədirmi? Biz hər zaman Allahın verdiyi, yazısı, nəsibi ilə razılaşırıqmı?..

## Doğum günü: Allahdan, yoxsa bizdən?..

Zaman vardı ki, uşağın dünyaya gəlməsinə Allah hökm verirdi. Yəni ana hamiləliyinin doqquzuncu ayının sonlarına doğru övladının hansı gün, hansı saatda dünyaya gəlişindən xəbərsizcə onun yolunu səbirsizliklə gözləyirdi. Bu, gecənin yarısında da ola bilərdi, səhərin sübhündə də, gündüzün ortasında da...

Dünyaya uşaq gəlirdi. Allahın hökmü, yazısı ilə. Ona alın yazısı verilir. Doğum gününün hansı günə təsadüf etməsi ilə onun bürcü müəyyənləş ki, bu bürc insanın həyatında böyük əhəmiyyətə malik olur.

Aid olduğumuz bürc xarakterimizlə birləşir. Aid olduğumuz bürclə gələcəyimiz birləşir. Hətta kiminlə ailə qurub onu ömür-gün yoldaşına çevirə biləcəyimiz, bu evliliyin bizim üçün uğurlu və yaxud uğursuz olması da birbaşa bürclərimizlə bağlıdır. Çünki bütün bunlar alın yazısı deyilən məqamda birləşir və Allah-təaladan hər birimizə ərməğan edilir. Bu, o qədər böyük mənaya malikdir ki... Yəni bunsuz həyatımızı, xoşbəxtliyimizi, övladlarımızın gələcəyini təsəvvür etmək çətindir. Lakin gəlin görək, bütün insanlar üçün bu, belədirmi? Bəzi insanlar Allahın alın yazısı ilə barışırlarmı?

## Taleni özləri yazanlar...

Artıq biz bütün sahələrdə Allahın hökmünü pozduğumuz kimi, insanın dünyaya gəlməsi məsələsində də Allahın hökmünü pozmaqdayıq. Belə ki, artıq illərdir ki, analar övladlarının dünyaya gəlməsi günündən xəbərsizdir. O mənada ki, artıq həmin günü onların özləri müəyyən edirlər. Məsələn, bu ayın 15-i həyat yoldaşımın və yaxud oğlumun ad günüdür, bu uşaq da həmin vaxt doğulsa, yaxşı olar. Filan gün anamın doğum günüdür, elə uşağın doğuşunu da həmin günə salsaq, gör necə gözəl olar. Bu kimi onlarla nümunələr göstərmək olar ki, artıq uşağın dünyaya gəlmə tarixini valideynlər özləri təyin edirlər.

Bunun da başlıca səbəbi indi artıq qadınların "müasirləşməsi", təbii yolla deyil, süni yolla doğuşa, yəni keysəriyyə əməliyyatı ilə övladlarını dünyaya gətirmələrinə verdikləri üstünlüklə bağlıdır. Əvvəllər keysəriyyə əməliyyatı o qadınlarda aparılırdı ki, onlarda doğuş anında hansısa bir problemin olduğu müəyyən edilirdi və həkim qərar verirdi ki, bu qadın uşağı dünyaya gətirməklə öz həyatını itirə bilər. Belə olanda onun üçün keysəriyyə üsulu seçilirdi. Bu da çox təsadüfi xarakter daşıyırdı.

Lakin müasir cəmiyyətimizdə artıq təbii doğuşlar təsadüfi hallarda olur. İndi hər bir qadın demək olar ki, keysəriyyəyə üstünlük verir. Bu üsula üstünlük isə həm də uşağın Allah-təalanın yazdığı, bəxş etdiyi günə qarşı çıxmaq kimi qəbul edilməlidir. Çünki, artıq burada doğuş gününü qadın özü, həkimi və ailəsi müəyyən edir. Allah bu uşağın dünyaya gəlmə əmrini ayın 5-nə vermişdirsə, uşaq dünyaya gəlir 10 gün əvvəl. Beləliklə, onun taleyinə yazılan bürclər də bir-birinə qarışır.



## Öz bürcündən məhrum uşaqlar...

Bəli, beləliklə uşaq öz bürcündən ya əvvəlki, ya da sonrakı bürcə məxsus olur. Övladımız böyüdükcə, onda elə xarakterlərlə, keyfiyyətlərlə qarşılaşırıq ki, bunu heç cür ayırd edə bilmirik ki, bu, nə üçün belə olub. Məsələn, övladımız çox dəcəldir, ipə-sapa yatmır və yaxud onda qeyri-adi bir xasiyyət var. Belə olanda biz onun bürcünə baxırıq. Baxırıq ki, görək bu uşaqdakı xasiyyət barədə onun məxsus olduğu bürc nə deyir. Oxuyuq, onun bürcündə övladımıza aid heç bir şey görmürük. Belə olanda hələ bir bürclərə də inanmağa başlayırıq ki, əşi, bu bürclər də doğrunu söyləmir. Lakin bircə dəfə düşünmürük ki, axı biz özümüz övladımızın bürcünün yerini dəyişik salmışıq. Bu bürcü biz ona vermişik. Allahın qismət elədiyi gündə doğulsaydı, təbii ki, o öz bürcündə olacaqdı və biz bu qədər problemlə qarşılaşmayacaqdıq.

Uşaqlarda bəzi psixoloji hallar da yaşanır ki, bunun aradan qaldırılmasında təbii ki, məxsus olduğu bürcün göstəricilərindən istifadə etməklə müalicə aparmaq olur. Biz keysəriyyə doğuşla övladımızın dünyaya gəlmə tarixini dəyişməklə onun bürcünü də dəyişir və bütün hallarda əngəllər yaradırıq. Beləliklə...

## Bürcümüzə uyğun olmayan xarakterimiz

Sonra uşaqlar böyüyür. Hər kəs kimi onlar da zamanında bürcləri ilə tanış olmaq istəyir. Hətta ona da maraq edirlər ki, görək nikahda hansı bürclər bizim üçün uğurlu hesab olunur. Oxuyur, məlumatlanırlar. Lakin bu məlumatlar onlar üçün doğru hesab edilirmi? Əlbəttə, yox.

Məsələn, Allah övladımızı "Xərçəng" bürcünə məxsus olmasını istəyib, ona bu bürcün xasiyyətini, uğurunu, uğursuzluğunu, nə bilim, xeyrini verib. Öz bürcünə müvafiq insanlarla dost olmağı, öz bürcünə uğur gətirəcək bürclərdən olan qadınla, kişi ilə ailə qurmağı uyğun bilib. Bizim analarımız nə edir? Bizi "Əkizlər"də dünyaya gətirir. Biz də oluruq "Əkizlər" bürcündən.

Və yaxud "Qız" bürcünə məxsus olduğumuz halda "Şir" bürcünə aid zamanda dünyaya gəlirik. Əslində "Qız" bürcü ilə "Şir" bürcü arasında o qədər böyük fərq var ki, elə bu fərqlər də gələcək həyatımızı tamamilə bir-birinə qarışdırır. Nə ata-ana, nə baba-nənə, nə biz özümüz özümüzdən baş aça bilmirik ki, biz nə üçün şir kimi hökmranlıq etmək xarakterində deyilik. Hələ üstəlik valideynlər bizi qınamağa da başlayır ki, sən nə qədər bacarıqsızsan: nə üçün heç olmasa bürcünə çəkməmisən? Axı sən "Şir" bürcündənsən. Həmişə güclü, əzəmətli, hökmran, diktator olmalısan.



Düşünmürük ki, axı bu uşaq "Şir" bürcündən deyil, "Qız" bürcündəndir. O, diqqətlidir, çalışqandır, istək və arzusunun reallaşması üçün əlindən gələni edəndir və bir o qədər də məsuliyyətlidir. Lakin hökmranlığı sevmir, diktator olmaq istəmir. Bu, onun xarakterinə yaddır.

Zaman gəlir, sevib sevilirik. Sevdiyimizin bürcü ilə maraqlanırıq. Oxuyub məlumat alırıq ki, onun bürcü ilə bizim bürcümüzün nikahda uğuru var. Amma əslində belə deyil axı. Çünki bizim bürcümüzün yerini dəyişdirib valideynlərimiz. Ailə qururuq. Baxırıq ki, yox, xasiyyətlərimiz uyğun gəlmir. Əsla bir yerdə yaşamağımız mümkün olmur. Belə olanda bürclərə inamsızlığımız yaranır. Hansı ki, bürclər bizim həyatımızın astronomik tərəfidir və onu da Allah bizim üçün uyğunlaşdırıb.

## Nəinki bürclər, ay, gün, saat, an belə bir taledir

Valideynlərimiz bilsələr ki, bizim dünyaya gəlişimizi müəyyənləşdirən Allahımız onu necə incə detallarla düşünüb-daşınıb həll edib, əsla bu cür hərəkətlərə yol verməzlər. Nəinki bürc, bizim hansı ayda, gündə, saatda, hətta anda belə dünyaya gəlməyimizin özünəməxsus tərəfləri, taleyimizdə böyük rol oynayan məqamları var. Nə üçün bir iş görəndə deyirlər ki, kaş ki, işimizin üstünə filankəs gələrdi, ayağı çox uğurludur. Nə üçün qonşu səhər-səhər evdən çıxıb bir işin dalınca gedəndə darvazadan boylanır ki, görüm yan qonşu küçədədir. Bilir ki, qarşısına o çıxsa, işi alınmayacaq. Nə üçün biz xeyirli bir iş üçün gedəndə evdəki beş-altı ailə üzvündən məhz filankəsə deyirik ki, gəl bu işi sən başla? Çünki bu insanların günün hansı saatında dünyaya gəlməsi ilə bağlı uğurlu-uğursuz olmaları da müəyyən edilir. Sübh çağı, günorta və axşamçağı doğulan insanlar arasında günün vaxtlarına görə də fərqlər var ki, bu fərqlə həyatımızı başa vururuq.

Lakin müasir dövrümüzdə günləri də, saatları da, hətta ayları da dəyişdiririk. Bu adamın, necə deyərlər, ayağı sayalı olduğu halda, axşamçağı doğulub deyə onu o cür tanımırlar. Və yaxud da əksinə. Bəli, beləliklə də səhv addımımızla, doğum günlərinin üst-üstə, yan-yana, yaxın, əlamətdar günlərlə qoşa düşməsi naminə talelərimizdə, həyat tərzimizdə də dəyişikliklər edirik. Belə olan halda isə...

## Allaha ehtiyac duymayanlar...

Belə olan halda ağıla gələn yalnız o olur ki, bəzi insanlar Allaha ehtiyac duymur. Yəni özləri üçün lazım olanı müəyyən edirlər. Hansı ki, onların hər birini bizə bəxş edən yaradıcı bir qüvvə var. Əgər o Yaradan olmasa, əslində heç nəyimiz olmaz.

Düşünürəm ki, oturub qarşımıza papağımızı qoyub fikirləşməyin vaxtı çoxdan çatmışdır. Lakin biz fikirləşməkdə də, düşünməkdə də hər zaman olduğu kimi gec qalırıq. Övladlarımız, onların gələcək taleyi naminə oturub fikirləşməliyik. Fikirləşdikcə də özümüzə sual verməliyik ki, əgər bütün bunlara biz qərar verməliyiksə, Allah nə üçündür bəs?

Nə üçün, nəyə görə övladımızın dünyaya gəlişinin real vaxtını gözləmirik? Nə üçün gözləməməliyik? Burada tələsik nə var ki? Axı nə üçün övladımızla həyat yoldaşımızın doğum günü eyni vaxtda olmalıdır. Nə üçün qızımızla nənəsinin ad günü eyni gündə qeyd olunmalıdır. Nə üçün oğlumuz böyük qardaşı ilə bir günün sevincini paylaşmalıdır... Filan tarixdə hansısa bir qohumun toyu olacaq və mən o toyda hökmən iştirak etməliyəm deyə nə üçün övladımızın doğum gününü qabağa çəkməliyik, bürcünü dəyişməliyik? Allahın ona bəxş etdiyi cümə gününü çərşənbə ilə, Allahın ona bəxş etdiyi sübh çağını axşamçağı ilə, Allahın ona bəxş etdiyi saatı başqa saatla əvəzləşdirməliyik? Nə üçün? Məgər biz tale yazanıq?

Taleni Allah yazır. Ulu Yaradanın bir anı belə min bir məna ilə, dəyərlə, qismətlə ələqəlidir. Allahın bəxş etdiyi doğum günü bizim Yaradanımızla bağımızdır. Allah bu bağla bizi idarə edir. Bizsə o bağı qopardırıq. Övladımızı gələcək çətinliklərlə üz-üzə qoyuruq. Elə bir çətinlik yaradırıq ki, nə o özünü tanıyır, nə də biz dünyaya gətirdiyimizi. Qalırıq müəmmalı nüanslar qarşısında. Sual dolu bir həyat qarşısında...

Bəsdir, deməyin vaxtıdır. Biz həyatımızın bütün tərəflərinə müasirlik gətirdik. Qapılarımızı Avropanın üzünə açdıq, dedik ki, gəl, xoş gəlmisən, keç yuxarı başa. O da keçdi oturdu yuxarıda. Nəyi istədi, verdik ona. Geyimimizdən tutmuş yeməyimizədək, hərəkətlərimizdən tutmuş davranışlarımızadək. Ta bu qədər yetər axı. İndi də doğum tarixlərimizi bada verməliyik? Belə olmaz axı. Analar Avropa qadınlarının yolu ilə gedib təbii doğuşa deyil, keysəriyyəyə üstünlük verəcək deyə, övladlar nə üçün bürcünü, ayını, gününü, saatını itirməlidir? Etməyin bunu, analar, böyüklər. Övladlarınızı məxsus olduqlarından məhrum etməyin.

***Mətanət Məmmədova***

BAXIŞ BUCAĞI

# Kapitulyasiyaya bərabər sövdələşmə

***ABŞ prezidenti Donald Tramp İran neftinə qarşı sərt sanksiyaların tətbiqi haqqında sərəncam imzaladıqdan qısa müddət sonra İrana nüvə proqramı ilə bağlı yeni təklif göndərib. Əslində İslam Respublikasına münasibətdə klassik kök və çubuq siyasəti tətbiq olunur. İran çətin seçim qarşısındadır. Bir tərəfdən onun iqtisadi vəziyyəti onsuz da ağırdır. Digər tərəfdən, Tramp İrandan rəhbərliyinin heç vaxt razılaşmadığı güzəştlər tələb edir. Vaşinqton və Tehranın mövqelərinin koordinasiyasına yardım "Avropa 3" ölkələrinin: vaxtilə İrana böyük sərmayə qoyan və ona görə də ona qarşı sanksiyaların ləğvində maraqlı olan Fransa, Almaniya və Böyük Britaniyanın vasitəçiliyi ilə təmin edilə bilər.***



Trampın Tehrana razılaşma təklif etdiyi müsahibəsi İrana maksimum iqtisadi təzyiq tətbiq edən sərəncam imzaladıqdan bir neçə gün sonraya təsadüf edib. 4 fevral tarixli fermanın məqsədi İranın neft ixracından əldə etdiyi gəlirləri sıfıra endirməkdir. Bu məqsədlə sanksiya rejimini pozanlara qarşı sərt tədbirlər sistemi tətbiq edilir. Onların siyahısını ABŞ Maliyyə Nazirliyi hazırlayıb və o, prezidentin fərmanı əsasında fevralın 6-da qəbul etdiyi qərarla bir sıra şəxslərə və təşkilatlara qarşı konkret viza sanksiyaları tətbiq edib. Bundan sonra Tramp İran hakimiyyəti ilə razılaşma deyil, sövdələşmə edə biləcəyini deyib. ABŞ prezidenti həmçinin İranın hava hücumundan müdafiə sisteminin zəifliyini insanlara xatırlatmağı zəruri hesab edib və bununla da şəffaf şəkildə eyham vurub ki, onlar onu yerləşdirməsələr, güc tətbiq oluna bilər. "Məncə, onlar əsəbidirlər, düşünürəm ki, qorxurlar", o, İran rəhbərliyi haqqında deyib.




Əslində Tehran bir seçim qarşısındadır: ya uduzmuş razılaşma yolu ilə nüvə proqramını məhdudlaşdırmaq, ya da raket hücumuna məruz qalmaq. Biznesmen-prezidentin məntiqindən belə çıxır ki, iranlılar birinci ssenariyə üstünlük verəcəklər. Lakin hələlik Tehran yeni saziş bağlamaq istəyini nümayiş etdirməyib. "ABŞ heç vaxt etibarlı olmayıb və indi də etibar etmək olmaz. ABŞ ilə razılaşma hər iki tərəf üçün faydalı olmalıdır. İranın birinci vitse-prezidenti Məhəmməd Rza Aref İranın dövlət televiziyasına açıqlamasında deyib: "Bu gün ABŞ ilə razılaşmanın bizim maraqlarımıza uyğun olacağını düşünmürük". Bundan əvvəl İslam Respublikası Xarici İşlər Nazirliyinin rəhbəri Abbas Əraqçi ABŞ-la danışıqların kapitulyasiyaya bərabər olacağını bəyan etmişdi.

Lakin reallıqda, sərt xarici ritorikaya baxmayaraq, İran rəhbərliyinin nüvə sazişində (və buna görə də sanksiyaların ləğvində və ya yumşaldılmasında) marağı yüksəkdir. "Sövdələşmə onun üçün sadəcə arzuolunan deyil, zəruridir. Əks təqdirdə, İran hakimiyyətinin qarşısını almaq istədiyi sosial təlatümlər mümkündür. Lakin sövdələşməyə maraq onun bağlanması prosesi ilə bağlı çətinlikləri aradan qaldırmır. 2018-ci ildən bəri İran nüvə proqramında böyük irəliləyiş əldə edib, o zaman ABŞ Trampın qərarına əsasən, o zamanlar birinci müddətində İranın nüvə proqramını məhdudlaşdırmaq müqabilində sanksiyaların yüngülləşdirilməsini nəzərdə tutan Barak Obama dövründə müzakirə edilən JCPOA (Birgə Hərtərəfli Fəaliyyət Planı) sazişindən birtərəfli qaydada çıxmışdı. Mövcud şəraitdə hətta JCPOA-nın müddəalarına qayıtmaq çətindir. Tramp həmçinin İranın raket proqramının azaldılmasını və hətta ləğv edilməsini və ölkənin qondarma "müqavimət oxu"na (bu, Tehranın Yaxın Şərqdə ona yaxın olan anti-İsrail təşkilatlarına - Yəmən husilərinə, İraqdakı şiə qruplarına, Hizbullah və HƏMAS-a istinad etmək üçün istifadə etdiyi termindir) yardımdan imtina etməsini tələb edir. Amma bu cür güzəşti indiki İran hakimiyyətinin dayağı olan bu "dövlət daxilində dövlət" olan İslam İnqilabı Keşikçiləri Korpusunda üstünlük təşkil edən İran radikallarının özləri başa düşməyə bilər.




Radikallar Ali Rəhbər Əli Xamneyidən 2005-ci ildə nüvə silahının yaradılmasını qadağan edən fətvanın ləğvini xahiş ediblər. Hazırda ölkə prezidenti Məsud Pezeşkiyanın mənsub olduğu liberallarla radikallar arasında siyasi mübarizə gedir. Bu şərtlər daxilində sövdələşmə hakimiyyətin ideoloji strukturuna zərbə vurmuş olardı. İran rəhbərliyi elə bir vəziyyətdədir ki, atacağı istənilən addım onu uduzduracaq. Tehran nüvə proqramından əl çəkmək və bununla da müdafiə qabiliyyətini zəifləmək istəmir. Bununla belə, proqramı davam etdirmək Trampın eyham vurduğu zərbə riskini daşıyır. Çox güman ki, bunu İsrail qüvvələri həyata keçirəcək. ABŞ müttəfiqinə uranın zənginləşdirildiyi fabriklərin yeraltı binalarına zərbələr endirməsi üçün 8 milyard dollarlıq yardım göndərir.

Nüvə proqramının gələcək inkişafı və xüsusən də nüvə silahı sınaqlarına hazırlıq İsrailin baş naziri Benyamin Netanyahu üçün İrana hücum etmək üçün əla bəhanə yaradacaq. Siyasi baxımdan İsrailin baş naziri bundan faydalanacaq. Və İran üçün İsrailin hücumu ölümcül olardı. Hətta ötən il İsrailin zəif hücumları İranın hava hücumundan müdafiəsinin zəif olduğunu nümayiş etdirdi. Ona görə də hesab edirəm ki, Əli Xamneyi ABŞ-la birbaşa danışıqları istisna etsə də, hələ də vasitəçilər vasitəsilə dialoqa başlaya bilər.

Vasitəçi rolunu çox güman ki, Böyük Britaniya, Fransa və Almaniya - BMT, Çin, ABŞ və Rusiya ilə birlikdə JCPOA-nın bağlanmasına töhfə vermiş ölkələr üzərinə götürəcək. Britaniya, fransız və almanlar da Trampı öz mövqeyini yumşaltmağa razı sala bilərdilər ki, bu da indi İran üçün qəbuledilməzdir. Bununla belə, bunun işə yarayacağı bəlli deyil.

**V.VƏLİYEV**

# Yox olan varlıq, yoxsa var olan yoxluq: **Yaradılışın sirri harada gizlənir?**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

İ YAZİ

### Biz öyrənənədək dərs davam edəcək




İnsan yarandığı andan dünyanı, öz varolma məqsədini və vəzifəsini dərk etməyə çalışıb. Minillər boyu milyonlarla alim, müdrik, ruhani şəxslər bu suala cavab axtarıb.



Son dövlərə qədər bu suallara ancaq dinin köməyi ilə cavab tapmaq mümkün idi. Lakin son əsrlərdə bu sıraya elm də qoşuldu və əsas suallara cavab tapmaqda xeyli imkanlar yaratdı. Əlbəttə ki, hələ də ən təməl suallara sübut oluna bilən konkret cavablar yoxdur, necə deyərlər, "biz onu bilirik ki, heç nə bilmirik", amma son elmi naliyyətlər bu sahədə inqilabi dönüş yaratdı. Lakin burada əsas problem onda idi ki, bəzi qüvvələr elmi materialist əsasda inkişaf etdirməyə çalışdılar, bu halda isə çoxbaşlı əjdaha nağılında olduğu kimi, 1 suala cavab tapıldıqda daha 10 sual meydan çıxırdı. Nəticədə suallar həndəsi silsilə artmağa başladı. Yaradılışın sirrinə vaqif olmağa çalışan müdrik insanlar başa düşdülər ki, cavab yalnız elmlə dinin vəhdətində tapıla bilər. Müasir elm, texnologiya və informasiya dövründə belə bir imkan heç vaxt olmadığı qədər güclüdür. Artıq belə yanaşmalar insanlara daha doğru gəlir. Məşhur ispan yazıçısı Joze Rodriges dos Santosun "Tanrının formulu" adlı əsəri belə nümunələrdən ən müəkəmməlidir.

Kvant fizikasının və molekulyar biologiyanın son kəşfləri nəticəsində elm dalana dirəndi. Məlum oldu ki, maddə faktiki olaraq yoxdur. Atomların tərkibinə- protonların, elektronların, neytronların, quarkların... dərinliyinə getdikdə fiziki çəkiyə, həcmə və formaya malik son bölünməz hissəciyi tapmaq mümkün olmadı. Yəni, tam bir boşluğa girildi, başqa sözlə maddənin kökündə yoxluqdur, faktiki olaraq maddi olan heç nə yoxdur... Materialist elm şoka düşdü...

Maddə deyilən hər şeyin enerji olduğu, enerjinin müxtəlif formatlarda və konfiqurasiyalarda bir yerə yığılıb maddəyə oxşadığı artıq elmi həqiqətdir. İşığın foton dalğaları ilə necə saniyədə 300 min km məsafə qət etməsi, bu gücü və enerjini haradan aldığı tam aydın deyil. Fotonların həm parçacıq, həm dalğa olması faktının ortaya çıxması isə ayrı bir şokdur.

Cüt yarıq eksperimenti elmdə şok effekti yaratdı. Son bölünməz hissəciyin superpozisiyada- eyni anda müxtəlif yerlərdə ola bilməsi isə artıq elmin dirəndiyi "tupik"in sonudur. Üstəlik, bu eksperimentlə son bölünməz hissəcəyin də şüurlu olduğunun təsdiqlənməsi alimləri şoka saldı. Kainatdakı bütün atomların bir biri ilə trilyonlarla işıq ili məsafədən belə eynizamanlı əlaqədə olduğu aydın oldu.

Yalnız düşüncənin, biliyin enerji formasında qalması, "maddə"yə çevrilməməsi bədəndən fərqli olaraq onun maddi kainata aid olmadığını, maddi qanunlara tabe olmadığını göstərir. Ruhun qeyri-maddi əbədi həyatı və yaddaşı var ki, bunlar maddi qanunlara tabe deyil. Maddə dediyimiz formalar Yaradanın əmri və ya ruhun istəyi ilə enerjinin müxtəlif formalarına düşərək ətrafda maddi dünya yaratmasından ibarətdir. 5 duyğu hissi ilə hiss etdiklərimiz maddənin var olduğunu sübut etmir, sadəcə beynin işıq, dalğa, səs və sair enerji siqnallarını emal edərək onu yaratmasını göstərir. Yəni, bütün bunlar simulyasiyadır və maddi həyat matriksdir. Uyğun siqanalları kənardan süni şəkildə beyinə ötürməklə ona istənilən olmayan şeyi göstərmək, eşitdirmək və hiss etdirmək mümkündür. Virtual reallıq texnologiyası bu əsasda hazırlanır.

Atomun tərkibində elektron, proton və neytronların arasındakı məsafə özlərinin ölçüsü ilə müqayisədə o qədər böyük ölçüdədir ki... faktiki olaraq biz heç nəyə toxuna bilmirik, arada həmişə boşluq olur. Biz sadəcə enerji və dalğalar vasitəsilə bunu hiss edirik.

Kainatdakı hər fəaliyyətin bütün kainata təsir etdiyini görürük. Dünyada atom sayı dəyişmir. Yəni, heç kim ölmür, heç nə yox olmur, sadəcə formasını dəyişir. Əvvəllər canlı və cansız deyə təsnifatlaşdırdığımız dünya modelinin səhv olduğu aydın oldu- cansız heç nə yoxdur, hər şey canlıdır və şüurludur. Hər şeyin öz missiyası, rolu var və hər şey daimi hərəkətdə, qarşılıqlı əlaqədədir. Kainatda statik heç nə yoxdur. Lakin yaradılışda hər şey determinist qanunlarla işləyir.

Qayıdaq elmin son şoklarına. Yaradılışın sirrini tapmaq istəyən alimlər belə qərara gəldilər ki, reallığın sadəcə illüziya olmadığını sübut etmək üçün onlar "nöqtəvi hissəciyi" kəşf etməlidirlər və buna Böyük Adron Kollayderi kimi texnologiyalar vasitəsi ilə nail olmaq olar.

Bu qurğu əslində atom hissəciklərini bir-biri ilə çarpışdıraraq parçalamaq üçün nəzərdə tutulmuşdu. Təcrübələr zamanı fiziki dünyanın maddi olmadığı ortaya çıxdı. Belə ki, gördüyümüz reallıq əslində illüziyadır və hər şey enerjidən ibarətdir.

Kopenhagen interpretasiyasına görə, müşahidəçi olmadığı halda reallıq mövcud deyildir. Yəni, biz mövcuduqsa ətrafımızda nəsə var, yoxuqsa yoxdur. Yəni, reallıq maddə yox, enerjidir və bu enerji şüurun onu müşahidə etməsini hiss edir və ona görə davranır, ona görə forma alır. Cüt yarıq təcrübəsində son bölünməz hissəciyin fotonlar şəklində ötürülərkən divarda qoyulmuş yarıqlardan necə bölünərək keçdiyini görən kvant fizikləri şoka düşdülər. Lakin onları daha bir şok gözləyirdi- parçacıq onu müçşahidənin varlığını hiss edir və yalnız 1 yarıqdan keçirdi, müçşahidə olmadıqda isə bu "bölünməyən" son hissəcik bölünərək fərqli yarıqlardan keçirdi. Boşluqdan ibarət olan çəkisiz parçacığın belə şüurlu olduğu və ətrafda baş verənləri dərk edib öz sirrini verməmək üçün ağıllı davrandığı məlum olanda alimlərin beyni "yandı".

Kvant fizikləri belə hesab edirlər ki, reallıq ona görə mövcuddur ki, kainatı təşkil edən enerjiylə qarşılıqlı əlaqədə olan insan şüuru onun mövcud olmasını istəyir. Bu artıq simulyativ həyat nəzəriyyəsini vurğulayır. Biz maddi varlıq olaraq fiziki dünyada yox, şüur olaraq matriksdə yaşayırıq. Şüurumuz ətrafımızdakı prosesləri beynimizdə formalaşdırır və bizə onları yaşadır. Hər şey düşüncələrimizdən ibarət olur. Dekart ona görə deyirdi ki, "düşünürəmsə, varam". Bunu dərk etmək və qəbul etmək asan olmasa da, əgər bu yekun olaraq elmi şəkildə qəbul olunsa, biz fiziki bədənimizin və maddi kainatın əslində mövcud olmadığını qəbul etməli olacağıq. Əlbəttə, burada, maddi kainatda. Əbədi qeyri-maddi kainatda isə biz mövcuduq, lakin buradakı həyatımız (ilahi matriksdəki proyeksiyamız) oradakı ali şəxsiyyətimiz tərəfindən idarə olunur.

Kainatı bürümüş "qaranlıq maddə"nin varlığı aydın olsa da, onun nədən ibarət olması haqda heç cür fakt əldə etmək olmur. Fəza boşluğu saydığımız bu görünməyən zəmin üzərində bütün maddi kainat atomları bir-biri ilə kəsintisiz bağlıdır.

Bu, o deməkdir ki, əslində boşluq yoxdur və bütün kainat atomları, enerjiləri "qaranlıq maddə" ilə bir-birinə bağlıdır və qarşılıqlı əlaqədə olan iki hissəcik daim bir-birinə təsir göstərir.

Ehtimal olunur ki, müşahidə etdiyimiz adi maddə kainatın cəmi 5%-ni təşkil edir. Digər hissə isə 68% qara enerji və 27% qara maddədən ibarətdir. Bu qara maddənin nə olduğunu elm hələ də dərk edə bilmir. Bu, nə maddədir, nə enerjidir, nə də dalğa.

Dolaşıqlıq nəzəriyyəsində aşkar olunan bir məqam isə lap təəccüblüdür- iki hissəcik qarşılıqlı əlaqədə olan zaman hissəciklərdən hər biri digərinin fırlanmasına təsir göstərir. Əgər iki hissəcik bir-biriylə dolaşıblarsa, o zaman onlar həmişə qarşılıqlı təsirdə olacaqlar. Məsafədən asılı olmayaraq bir hissəciyin fırlanması digərinin fırlanmasına təsir göstərəcək- İstər biri kainatın o başında olsun, o biri isə bu başında, heç bir zaman və məsafə məhdudiyyət yoxdur! Bunu dərk edə bilirsinizmi? Əlbəttə yox. Bu son elmi dəhşətləri kvant fizikləri belə dərk edə bilmirlər və bəziləri dəli olmaq üzrədir. Bu o deməkdir ki, insan Yaradılışın sirrinə heç vaxt vaqif ola bilməyəcək- bu Yaradanın kurasiyasındadır və bizə maddi dünyadakı həyatımızda məhdud çərçivədə bilik əldə etmək imkanı verilmişdir. İlahi biliklər yalnız maddi dünyadan qurtulub əbədi kainata yüksəldiyimiz zaman açılacaq.

Bununla da bitmir. Uzaq məsafələrdən bir-biriylə əlaqə yaradan tədqiqatçılar bu halı canlı hüceyrələrdə də müşahidə edə biliblər. Məşhur eksperimentlərdən birində tədqiqatçılar Petri qabında yosun hüceyrələri yetişdirmişdilər. Sonra isə onlar bu hüceyrələri iki hissəyə ayıraraq, bir hissəsini digər laboratoriyaya aparmışdılar. Müşahidələr zamanı məlum olmuşdu ki, iki qabı bir neçə hissəyə ayırsalar belə, bir qabdakı aşağıvoltlu cərəyan uzaqda yerləşən digər qabdakı hüceyrələrə eyni anda təsir göstərir.

Bu son kəşflərdən sonra biz artıq kainatı bizim təsəvvür və hiss etdiyimiz hər şeyin mövcud olduğu fiziki sfera şəklində təsəvvür edə bilmərik. Biz kainatı məşhur fizik Rocer Penrouzun nəzəriyyələşdirdiyi kimi, yəni məhz informasiya kimi qəbul etməliyik. Yəni, həyat yalnız bilikdən ibarətdir!

Belə məlum olur ki, fiziki kainat bizim hamımızın gözəgörünməz şəkildə əlaqədə olduğumuz abstrakt kainatın məhsuludur. İnformasiya sadəcə olaraq maddi kainatın fiziki konstruksiyalarında yer alır, ancaq bizim fiziki vəziyyətimizə abstrakt məkandan ötürülür. Məşhur Ervin Şredingerin dediyi kimi: "Bizim material cisim və qüvvə şəklində müşahidə etdiyimiz hər şey, əslində fəzanın strukturundakı formalar və variasiyalardır. Hissəciklər isə sadəcə görüntüdür". Şredingerin məşhur pişik təcrübəsinə baxın, bu paradoks izah olunmazdır.

Sadə dildə desək, hər şey enerjidən ibarətdir, enerji isə maddi deyil. Bu maddi həyatdan aparacağımız yeganə şey isə informasiya olacaq- topladığımız bilik, təcrübə, hisslər, düşüncələr...

Kainatda heç bir enerji, səs heç vaxt itmir, müxtəlif frekanslarda dalğalar formasında dövr edir. Düşüncənin, səsin, baxışın gücü ilə nələr edildiyi haqda çox faktlar var və burada heç bir maddi təsirdən söhbət getmir. Hipnozla bağlı elmi təcrübələr bu sahədə çox möhtəşəm biliklər əldə edilməsinə səbəb oldu. Əvvəlki həyatlarını xatırlayanlar, həyatda heç vaxt bilə bilməyəcəyi məlumatları bülbül kimi ötənlər... Kliniki ölüm keçirən milyonlarla insanın təcrübələrini araşdırmaq hər şeyi aydın göstərir. İnsan (Ruh) ölmür, ölə də bilməz, sadəcə paltarını (bədənini) dəyişir və məkanını (maddi dünyanı) dəyişir. Bəzən bu proses (reinkarnasiya) təkrar-təkrar baş verir- bu virtual məktəbdə dərslər biz öyrənənədək davam edir. Ta ki maddi dünyadan (illüziyadan) qurtulub əbədi dünyaya keçməyə layiq olanadək.

A.Eynşteynin sözləriylə desək, bu dünya həqiqətən, illüziyadan ibarətdir və bu illüziya çox möhtəşəmdir.

(Ardı olacaq)

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
13 fevral
2025-ci il

# Səhv karta atılan pulun qaytarılması:
# QANUN NƏ DEYİR?



## Hüquqşünas aydınlıq gətirdi

”Pulun səhvən tanımadığı şəxsin bank kartına köçürüldüyü hallar hər zaman baş verir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”İlk öncə, banka müraciət edib pul köçürmə əməliyyatının ləğv edilməsini tələb etməyiniz lazımdır. Kartın aid olduğu bank pulun köçürüldüyü kartın hansı banka aid olduğunu təyin edərək, həmin bank müştərisinə bildirməlidir ki, kartına səhvən vəsait daxil olub. Əgər şəxs razılıq verirsə, bank pulu geri qaytarmalıdır. Həmin şəxs sizinlə əlaqə saxlasa, pulunuzu geri qaytarmaq ehtimalı var. Əks halda şəxs razılıq verməsə, vətəndaş artıq məhkəməyə müraciət etməlidir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1091.1-ci maddəsinə əsasən şəxs (varlanmış şəxs) heç bir hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə etdikdə əsassız varlanmış hesab olunur. Əsassız varlanma o zaman olur ki, şəxsin varlanması üçün hansısa qanuni əsas və ya müqavilə əsası olmur. Onlayn pul köçürmələri edərkən qarşı tərəfdən aldığınız kartın 16 rəqəmli nömrəsinin düzgünlüyünə diqqət etmək lazımdır.

Əməliyyatı ödəniş terminalları vasitəsilə həyata keçirirsizsə, bu zaman 16 rəqəmlə yanaşı, pul göndərdiyiniz şəxsin ad və soyadının ilk hərflərinə də diqqət edin. Kartdan karta pul köçürmək qadağan deyil. ”Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanunu kartdan karta pul göndərməyi qadağan etmir. Ancaq Qanun, istehlakçıların elektron ödəniş etmək imkanı ilə təmin edilməməyi qadağan edir. Beləki, POS-terminalların müştəriyə təqdim edilməməsini qadağan edir. Cərimə olaraq da 1-ci dəfə 1000 manat, 2-ci dəfə 3000 manat, 3-cü dəfə və daha çox olanda 6000 manat müəyyən edilir”.

***Ayşən Vəli***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Şirvanda 5 evdən oğurluq edən keçmiş məhkum yaxalanıb



Şirvanda beş evdən oğurluq etməkdə şübhəli bilinən şəxs saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri ilə şəhər ərazisində yerləşən beş evdən oğurluq etməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Mirzağa Qasımov saxlanılıb. Onun evlərdən 53000 manat dəyərində qızıl-zinət və məişət avadanlıqları oğurladığı müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb, M.Qasımov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

*MÜNASİBƏT*

## “Əcnəbi sözlər dilimizi həm zənginləşdirir, həm də korlayır”

”Məlum olduğu kimi, dilimizin saflığının qorunması, ədəbi dilin normalarının gözlənilməsi məsələsi son dövrdə xüsusi aktuallıq kəsb edir və diqqət mərkəzindədir. Hər bir dilin lüğət tərkibinin inkişafında və zənginləşməsində həmin dilin daxili imkanları ilə bərabər alınma sözlər də çox önəmli rol oynayır. Başqa dillərdən söz almaq müasir dillərin zənginləşməsi üçün zəruri proses hesab edilir. Narahatlıq doğuran digər məsələlərdən biri də Azərbaycan dilinə əcnəbi söz və ifadələrin yersiz daxil edilməsidir”. Bu sözləri Dilçilik İnstitutunun aparıcı elmi işçisi, dosent Təranə Şükürlü SİA-ya açıqlamasında bildirib. Onun sözlərinə görə, Azərbaycan dilinin lüğət tərkibi minillər ərzində formalaşıb və bugünkü günümüzə gəlib çatıb: ”Alınma sözlər artıq bizim dilimizə uyğunlaşıb və doğmalaşıb. Ona görə də, dil ilə bağlı təkliflər verən zaman ehtiyatlı olmaq lazımdır. Çünki bəzi alınma sözlər var ki, artıq ”vətəndaşlıq hüququ” qazanıblar”. Bu gün dilimizdə əcnəbi sözlərdən yersiz olaraq istifadə edilməsi əsas problemlərdəndir. Belə sözlər olur, amma çox vaxt insanlar tərəfindən qəbul olunmur. Bu hal ən çox publisistik üsluba xasdır. Belə sözlər daha çox mətbuatda çıxır, insanlar oxuyur, diqqətini çəkəndə yadda saxlayıb işlədirlər. Beləliklə, geniş yayılır. Qəbul olunmadıqda isə işlək olmur”.



Hazırda terminlər ingilis dilindən daxil olduğuna görə xarakterik xüsusiyyətləri Azərbaycan dilində nəzərə alınır və ingilis dilindən alınan terminlərin transliterasiya forması müəyyənləşir. Terminlər alınan zaman birinci növbədə alınmaların işlənməsinə baxılır. Məsələn, ”kompüter” ingilis dilində necə yazılır. Hər dilin özünün səs sistemi var. Azərbaycan dilinin öz hərfləri və ona uyğun olaraq transliterasiya olunur. Transliterasiya zamanı Azərbaycan dilinin bütün qanunauyğunluqları götürülür. Məsələn, elə alınma sözlər var ki, onlar 5-6 il müddətində dildə oturuşur. Əcnəbi sözlər dilimizi həm zənginləşdirir, həm də korlayır”.

***Xeyrənsə Piriyeva***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700